## "Vaxtım təyyarələrdə keçirdi"

### Elmar Məmmədyarov indiki həyatından məmnundur



**Azərbaycanın sabiq xarici işlər naziri Elmar Məmmədyarov Baku TV-yə müsahibə verib.**

E.Məmmədyarov bildirib ki, yazı-pozu işi ilə məşğuldur:

"Evdə də olsam, siyasətlə maraqlanıram, öz fikirlərimi bölüşürəm. Darıxmıram evdə. İş qrafikim çox ağır idi, yorulurdum. Təyyarələrdə keçirdi vaxtım. Pandemiya vaxtı evdə oldum, bu zaman bir az dincələ bildim. İndi idmanla məşğulam, özümə baxıram. Eləcə də mediaya açığam, siyasi məsələlərə şərh verirəm".



## İlaxır çərşənbədə Bakıda 3 nəfər tonqalda yanıb

**Martın 15-də Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına çərşənbə tonqalının üzərindən tullanan zaman yanıq xəsarətləri alan 3 nəfər müraciət edib.**

Bu barədə Səhiyyə Nazirliyindən bildirilib.

*Qeyd edilib ki, onlar müxtəlif yanıq xəsarətləri ilə Yanıq Mərkəzinə aparılıblar.*


№ 49 (5571), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 17 mart 2022-ci il (cümə axşamı)




## 10 min nəfərə çatdı

### Daha 184 vətəndaşımız ölkəmizə təxliyə olunub

**Ukraynadakı vəziyyətlə əlaqədar Rumıniyadan daha 184 vətəndaşımız bu ölkənin Yassi şəhərindən Azərbaycana təxliyə edilib. Onlardan 16-sı uşaqdır.**

Trend xəbər verir ki, indiyədək "Azərbaycan Hava Yolları" QSC-nin təyyarələri ilə həyata keçirilən təxliyə zamanı əsasən qadınlara, uşaqlara, ahıllara və səhhətində problem olanlara üstünlük verilib.

Ölkəmizə təxliyə olunan vətəndaşlarımız göstərilən diqqətə və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Dövlət Miqrasiya Xidmətinin məlumatına görə, indiyədək 10 minə yaxın vətəndaşımız Ukraynadan ölkəmizə təxliyə olunub.

*Qeyd edək ki, Ukrayna ilə həmsərhəd ölkələrdən vətəndaşlarımızın çarter reysləri və avtobuslarla təxliyəsi bundan sonra da davam edəcək.*



## Ərdoğan Zelenski ilə telefonla danışıb

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Ukrayna Prezidenti Volodimir Zelenski arasında telefon danışığı olub.**

Anadolu agentliyi xəbər verir ki, görüş zamanı Ukrayna-Rusiya müharibəsində son hadisələr müzakirə olunub.

Prezident Ərdoğan ukraynalı həmkarı ilə Rusiya Prezidenti Vladimir Putini bir araya gətirmək üçün səylərini davam etdirəcəyini bildirib. Rəcəb Tayyib Ərdoğan Zelenski ilə görüşündə ən qısa zamanda daimi atəşkəsə nail olmağı hədəflədiklərini və müharibənin davam etdirilməsinin heç kimə fayda vermədiyini bildirib.

## Putin və Paşinyan Qarabağdakı vəziyyəti müzakirə ediblər

### Tərəflər həmçinin Türkiyə Ermənistan münasibətlərinə də toxunublar



**Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub.**

"RİA Novosti" xəbər verir ki, tərəflər Qarabağdakı vəziyyəti həmçinin Türkiyə Ermənistan münasibətlərini müzakirə edib.

Liderlər 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatlarda əksini tapmış məsələlərə toxunub.

Paşinyan və Putin Azərbaycanla sülh sazişinin imzalanması ilə bağlı danışıqların təşkili üçün Ermənistanın ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə müraciətini müzakirə ediblər.

Söhbət zamanı həmçinin Ermənistan-Türkiyə dialoqu, bu kontekstdə son proseslər, eləcə də Ukrayna ətrafında vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Ermənistan baş nazirinin aprеldə Rusiyaya rəsmi səfərinin təşkili məsələləri müzakirə edilib.

# Tərəflər Türkiyəyə etimad göstərir



**Mövlud Çavuşoğlu:** "Vasitəçi rolumuzu bütün çətinliklərə baxmayaraq, davam etdiririk"

**Sergey Lavrov:** "Türkiyə hazırkı böhrandan irəli gələn tapşırıqlara obyektiv yanaşmağa çalışır"

**"Türkiyə Putin və Zelenskinin görüşünə ev sahibliyi etməyə hazırdır". Bu barədə Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu rusiyalı həmkarı Sergey Lavrovla görüşü zamanı deyib. Çavuşoğlu vurğulayıb ki, Ankara Belarusda keçirilən Rusiya-Ukrayna danışıqlarını dəstəkləyir:**

"Türkiyə olaraq Ukraynada atəşkəsin əldə edilməsi üçün öhdəmizə düşəni etdik və edirik". O, təəssüflə qeyd edib ki, dağıntı, ölümlər və insan faciələri davam edir: "Bu təhlükəli prosesləri dayandırmaq üçün çağırışlarımızı davam etdirik. Hər birimizin məqsədi eynidir - müharibə dayandırılmalı, insanlar ölməməlidir. Ukraynada axan qanın dayandırılması lazımdır. Müharibədən qazanan olmaz, sülhdən isə uduzan olmaz". O əlavə edib ki, əsas məsələ yer deyil, nəticəyə köklənmiş müzakirələrin başlanmasıdır. Bundan əlavə, Çavuşoğlu Rusiya və Ukraynanın mövqelərində yaxınlaşma olduğunu vurğulayıb:

"Ümid edirəm ki, artıq bizim vasitəçiliyimiz ilə bu cür görüşə ehtiyac qalmaz, iki lider davamlı atəşkəs və sülh üçün bir araya gələr".

(səh.3)

# Ən yüksək qiymət artımı bu il olacaq

### Ərzaq məhsullarının qıtlığı uzun müddət davam edəcək



**Milli Məclisin ötən iclasında 2021-ci ilin hesabatını təqdim edən Baş nazir Əli Əsədov qlobal bazarda ərzaq bahalaşmasının Azərbaycana mümkün təsirlərindən danışıb.**

Baş nazir bildirib ki, ərzaq təhlükəsizliyinin təmini əsas vəzifələr sırasındadır. Ə.Əsədov qeyd edib ki, mövcud vəziyyəti nəzərə alaraq, kənd təsərrüfatı məhsullarının istehsalını artırmalı, idxaldan asılılığın azaldılmasına nail olmalıyıq: "Bunun üçün aqrar sektorun inkişafında əsaslı dönüş yaratmalıyıq. Kənd təsərrüfatı bizim üçün həm iqtisadi, həm sosial, həm də təhlükəsizlik məsələsidir.

(səh.3)



## Türkiyəli müəllim və şagirdlər Qarabağa səfər edəcəklər

**Türkiyənin ümumi təhsil müəssisələrinin şagird və müəllimlərindən ibarət heyəti Bakıya səfər edəcəklər.**

"Report" xəbər verir ki, bu barədə təhsil naziri Emin Əmrullayevin Türkiyədə ölkənin milli təhsil naziri Mahmut Özerlə görüşündə bildirilib.

Səfərin may-iyun aylarında gerçəkləşməsi nəzərdə tutulur. Nümayəndə heyətinin səfər çərçivəsində Azərbaycanın işğaldan azad olunan ərazilərə gedəcəkləri planlaşdırılıb.

## Metro qatarında qapı bloklayıcısının siqnalı işə düşüb, gecikmə olub



**Yaşıl xətt üzrə "28 May-Nizami" mənzili boyunca hərəkət edən qatarın maşinist kabinasında qapıların avtomatik bloklayıcı siqnalı işə düşüb.**

Bu səbəbdən maşinist qatarı saxlayaraq idarəetmə panelinə siqnalın daxil olduğu 3-cü vaqonun müvafiq qapısına baxış keçirib. Hər hansısa problem olmadığını müəyyən etdikdən sonra yenidən yoluna davam edib.

"Şərq" "Bakı Metropoliteni"nə istinadən xəbər verir ki, bunun nəticəsində iki qatar arası intervalda 6 dəqiqəyə yaxın fərq yaranıb və yubanma olub. Fərq yalnız iki qatar arasında yarandığından qısa müddət ərzində interval fərqi aradan qaldırılmasına. İlkin ehtimala görə, vaqonun qapısına sərnişinin müdaxilə etməyə cəhd göstərməsi səbəbindən idarəetmə panelində qapı bloklayıcısının siqnalı işə düşüb. Bununla bağlı müvafiq qaydada texniki araşdırma aparılmasına başlanılıb.



## Dünya həqiqətən beşdən böyükdür

### Ankara vasitəçilik missiyasında sübut edir ki, tərəfsiz və obyektivdir

(səh.5)

## "Dostlarıma salam söyləyin..."

"Günəşdən usanan" Rüstəm İbrahimbəyov həyata vida etdi



(səh.4)

## Daha 115 nəfər koronavirusa yoluxub

### 6 nəfər ölüb, 159 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 115 yeni yoluxma faktı qeydə alınıb, 159 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 6 nəfər vəfat edib.

*Azərbaycanda indiyədək ümumilikdə 791 077 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 779 987 nəfər müalicə olunaraq sağalıb, 9 633 nəfər vəfat edib. Aktiv xəstə sayı isə 1 457 nəfərdir.*

## Azərbaycanla Türkiyə arasında təbii qazın tədarükünə dair memorandum təsdiq edilib

**Azərbaycan Energetika Nazirliyi ilə Türkiyə Energetika və Təbii Sərvətlər Nazirliyi arasında təbii qazın tədarükünə dair Anlaşma Memorandumu təsdiq edilib.**

Prezident İlham Əliyev bununla bağlı fərman imzalayıb.

Fərmana əsasən, Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etməlidir.

Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərəcək.

## Şəhərsalma və Tikinti Məcəlləsinə dəyişiklik edilib

**Prezident İlham Əliyev Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi barədə qanun imzalayıb.**

Dəyişikliyə əsasən, məcəlləyə aşağıdakı məzmunda maddə əlavə edilib:

"Bu Məcəllənin 102.4-2-ci maddəsində göstərilən əsasla icazə ləğv edildikdən sonra sifarişçi tikinti obyektinin istismarına icazə verilməsi üçün təkrar müraciət edə bilər. Təkrar müraciətə yalnız dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd əlavə edilir. Müvafiq icra hakimiyyəti orqanı və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum müraciət daxil olduğu gündən 2 iş günündən gec olmayaraq tikinti obyektinin istismarına icazəni sifarişçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir".

## Hikmət Hacıyev: "Ağdam, Füzuli və Cəbrayıl rayonlarında Səhra missiyası həyata keçirilib"



**Azərbaycan Aİ, BMT və Dünya Bankının birgə "Bərpa və Sülh quruculuğunun qiymətləndirilməsi" komandası ilə səmərəli müzakirələr aparıb.**

Bu barədə Prezidentin köməkçisi Hikmət Hacıyev "Twitter" səhifəsində paylaşım edib.

"İşğaldan azad edilmiş Ağdam, Füzuli və Cəbrayıl rayonlarında Səhra missiyası həyata keçirilib. Azərbaycan Hökumətinin münaqişədən sonrakı yenidənqurma gündəliyinin səylərinə beynəlxalq ictimaiyyətin dəstəyi vacibdir",- deyə paylaşımda qeyd olunub

## Ceyhun Bayramov türkiyəli həmkarı ilə Ukraynadakı vəziyyəti müzakirə edib



**16 mart 2022-ci il tarixində Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının Xarici İşlər naziri Mevlüt Çavuşoğlu arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin Mətbuat İdarəsindən verilən xəbərə görə, nazirlər bölgədəki cari vəziyyət, o cümlədən Ukrayna ətrafındakı məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Deputat Şahin Seyidzadə mandatından imtina edir



**Milli Məclisin deputatı Şahin Seyidzadə deputat mandatından imtina etməsi ilə bağlı ərizə yazıb.**

Ş.Seyidzadənin mandatından imtina ilə bağlı ərizəsi Mərkəzi Seçki Komissiyasına (MSK) göndərilib.

Ərizəyə yaxın günlərdə MSK tərəfindən baxılması gözlənilir.

*Qeyd edək ki, bu il martın 3-də Şahin Kamil oğlu Seyidzadə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilib.*

*Xatrladaq ki, sabah MSK-nın iclasının keçirilməsi nəzərdə tutulur.*

## ABŞ Ukraynaya hərbi yardım üçün əlavə 800 milyon dollar ayıracaq

**Birləşmiş Ştatlar Ukraynaya əlavə 800 milyon dollarlıq hərbi yardım ayıracaq.**

"Report" xarici KİV-ə istinadən xəbər verir ki, bunu ABŞ Prezidenti Cozef Bayden deyib.

Onun sözlərinə görə, təkcə bu həftə ABŞ-ın Ukraynaya yeni təhlükəsizlik yardımının ümumi məbləği 1 milyard dollara çatıb.

Bundan əlavə, ABŞ hakimiyyəti Ukraynaya əlavə silahlar, o cümlədən hava hücumundan müdafiə sistemləri, tank əleyhinə sistemlər, atıcı silahlar və döyüş sursatları ötürmək niyyətindədir.

Bayden deyib ki, yardım paketinə, həmçinin 9 min tank əleyhinə sistem, 7 min atıcı silah və 20 milyon patron daxildir.

## İcbari tibbi sığortayla bağlı müştərək maliyyələşmənin tətbiqi təxirə salınıb

**Prezident İlham Əliyev "Tibbi sığorta haqqında" qanuna təklif edilən dəyişikliyi təsdiq edib.**

Qanuna əsasən, sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin icbari tibbi sığorta təminatı ilə əhatə olunmayan və sığortaolunan tərəfindən ödənilən müştərək maliyyələşmə məbləğinin tətbiqi proseduru daha 1 il təxirə salınıb.



"Tibbi sığorta haqqında" qanunda nəzərdə tutulan sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin icbari tibbi sığorta təminatı ilə əhatə olunmayan və sığortaolunan tərəfindən ödənilən müştərək maliyyələşmə məbləğinə aid hissələrdə qanunun 15-28.3-cü və 15-28.4-cü maddələri 2023-ci il 1 yanvar tarixindən etibarən qüvvəyə minəcək.

Beləliklə, 2023-cü il 1 yanvar tarixindən ilkin tibbi-sanitariya yardımına müraciət etmədən birbaşa ambulator-poliklinik, laborator, funksional-diaqnostik tibbi xidmətlərdən istifadə etdikdə və sığortaolunan icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə etmək məqsədilə yönləndirildiyi tibbi ərazi bölməsindən kənar yerləşən dövlət tibb müəssisəsinə müraciət etdikdə müştərək maliyyələşmə məbləği ödəməli olacaq. Bu, 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

## Düşmənlə məxfi əməkdaşlıq edən şəxs ifşa edilib



**Azərbaycan Respublikasının milli təhlükəsizlik maraqlarına yönələn təhdidlərin, xarici xüsusi xidmət orqanlarının kəşfiyyat-pozuculuq fəaliyyətinin aşkar edilməsi və qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks əks-kəşfiyyat tədbirləri davam etdirilir.**

Dövlət Təhlükəsizliyi Xidmətinin rəsmi saytı xəbər verir ki, başlanılmış cinayət işi üzrə Azərbaycan Respublikasının vətəndaşı, 1981-ci il təvəllüdlü Məmmədov Emil Ramiz oğlu dövlətə xəyanət etməkdə şübhəli bilinib.

Aparılmış araşdırmalarla Emil Məmmədovun Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə düşmən tərəfinə keçməklə xarici xüsusi xidmət orqanının nümayəndələrinin tapşırıqlarını yerinə yetirərək onlara kömək etmək məqsədilə maddi maraq müqabilində üçüncü ölkə ərazisində Ermənistan xüsusi xidmət orqanının əməkdaşları ilə görüşüb məxfi əməkdaşlığa cəlb edilməsi, Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi zərərinə istifadə oluna biləcək məlumatların toplanması barədə tapşırıqlar alması, verilmiş tapşırıqların icrası istiqamətində fəaliyyət göstərməsi, Ermənistan xüsusi xidmət orqanının nümayəndələri ilə əlaqələrinin gizliliyinə və konspirasiya tələblərinə dair təlimatlandırıldığı qaydalara riayət etməsinə əsaslı şübhələr müəyyən edilib.

*Emil Məmmədov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə məsuliyyətə cəlb olunaraq məhkəmənin qərarına əsasən həbs edilmişdir.*

*Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.*

## "Yalnız Ukrayna modeli ola bilər"

### Ukrayna Prezident Ofisi: "Bizə budapeştsayağı təhlükəsizlik zəmanəti lazım deyil"



**"Təbii ki, biz tərəfdaşlarımızın danışıqlar prosesində fəal tərəf kimi qalmaq cəhdini başa düşürük. İsveç və ya Avstriyanın neytrallıq modelləri haqqında sözlər buradan gəlir. Amma Ukrayna indi Rusiya ilə birbaşa müharibə vəziyyətindədir".**

"Report" xəbər verir ki, bunu Ukrayna Prezident Ofisi rəhbərinin müşaviri Mixaylo Podolyak teleqram kanalında yazıb.

"Buna görə də yalnız Ukrayna modeli ola bilər və yalnız təsdiqlənmiş təhlükəsizlik zəmanətləri ilə. Başqa model və ya seçimlər yoxdur. Bunun mənası nədir? Birincisi, mütləq və məhz effektiv təhlükəsizlik zəmanətləri. Protokol və ya budapeştsayağı yox. Bu isə o deməkdir ki, zəmanəti imzalayan dövlətlər Ukraynaya hücum zamanı bu gün olduğu kimi kənarda durmurlar, münaqişədə Ukraynanın tərəfində fəal iştirak edir və rəsmi şəkildə bizə lazımi qədər silah-sursat verirlər. İkincisi, Ukrayna artıq qanadlı raketlərdən səmanı bağlamağa imkan verən və ya imkan verməyən bürokratik prosedurlardan asılı olmaq istəmir. Səmanın mütləq bağlanacağına dair birbaşa və sərt təminatlara ehtiyacımız var", - Prezident Ofisinin rəsmisi vurğulayıb.

O əlavə edib ki, Ukrayna heç vaxt qonşularına hücum edən və ya etməyi planlaşdıra militarist dövlət olmayıb:

"Buna görə də bu gün Ukrayna aydın şəkildə müəyyən edilmiş təhlükəsizlik zəmanətləri ilə həqiqətən güclü müttəfiqliyə sahib olmaq istəyir".

*Qeyd edək ki, Ukraynanın Nüvə silahlarının yayılmaması haqqında müqaviləyə qoşulması ilə əlaqədar təhlükəsizlik təminatlarına dair Memorandum (və ya qısaca Budapeşt Memorandumu) Ukraynanın Nüvə Silahlarının Qarşısının Alınması Müqaviləsinə qoşulması ilə əlaqədar təhlükəsizlik təminatlarına dair dövlətlərarası sənəddir. 1994-cü ildə Ukrayna, Rusiya, Böyük Britaniya və ABŞ liderləri tərəfindən imzalanıb və hələ də heç bir dövlət tərəfindən ratifikasiya edilməyib.*

*Rəsmi Kiyev üçün Budapeşt Memorandumu 2014-cü ilin əvvəlində Rusiyanın Krımı ilhaq etməsi ilə ən mühüm sənədə çevrilib. Memorandumun interpretasiyasının əsas problemi sənədin ratifikasiya olunmamasıdır. Ukrayna israr edir ki, sənəd dövlət başçıları tərəfindən imzalanıb və imzalandığı andan qüvvəyə minib. Bu mövqenin əleyhdarları hesab edirlər ki, memorandum ratifikasiya olunmadığı üçün sənədi sadəcə bəyannamə hesab etmək olar.*

## "Xaricdə yaşayan milli satqınlar var"

### Putin: "Qərb Rusiya cəmiyyətini "beşinci kolon"un əli ilə parçalamağa çalışır"



**Rusiya Müdafiə Nazirliyinin Ukraynada taktikası özünü tamamilə doğruldub.**

APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Prezident Vladimir Putin iqtisadi-sosial sahə ilə bağlı keçirdiyi müşavirədə çıxışı zamanı bildirib.

"Müdafiə Nazirliyinin Ukraynadakı taktikası özünü tamamilə doğruldub. Hərbçilərimiz dinc əhali arasında itkilərdən yayınmaq üçün hər şeyi edir", - Putin vurğulayıb.

Putin bildirib ki, Qərb Rusiya cəmiyyətini "beşinci kolon"un əli ilə parçalamağa çalışır.

"Qərb Rusiya cəmiyyətini parçalamağa, "beşinci kolon"dan istifadə etməyə çalışır. Əsas ümid isə burada pul qazanıb, xaricdə yaşayan milli satqınlarla bağlıdır. Mən Mayamidə villaları olanları, fua-qra sevənləri qınamıram. Lakin elələri var ki, "ali kastada"da olmaq istəyir, Qərbdə oturur, amma onlardan ancaq istifadə olunur", - Putin vurğulayıb.

## FED faizi artırır

### Dollar bu tarixdən bahalaşacaq

**ABŞ-ın Federal Ehtiyatlar Sistemi 3 ildən sonra ilk dəfə faiz dərəcələrini 0,25 faiz artıracaq.**

Bu barədə ABŞ mənbələri məlumat yayıb. Bildirilir ki, Mərkəzi Bankın iclası bu gün yerli vaxtla saat 16:00-da baş tutacaq. Ekspertlər hesab edir ki, faiz dərəcəsinin artırılması dünya birjalarına təsir edəcək və dolların dünya miqyasında yerli valyutalar qarşısında bahalaşması gözlənilir.

*Qeyd edək ki, FES rəhbəri Cerum Pauell hələ bir müddət əvvəlki açıqlamasında mart ayından başlayaraq faiz dərəcəsini mərhələli şəkildə artırılacağını bəyan etmişdi. O bildirmişdi ki, ölkdə inflyasiya dərəcəsi düşməsə daha aqressiv qərarlar qəbul ediləcək. ABŞ-da inflyasiya dərəcəsi son 40 ilin ən yüksək həddinə - 7,9 faizə çatıb.*

# Sanksiyaların ağır mərhələsi başlayıb

## Rusiya Ukraynanın əli ilə tələyə salınıb

**Ukrayna ərazisini işğal etmək məqsədi ilə savaşa başlayan Rusiya Qərbin ağır sanksiyalarına məruz qalmaqdadır. Bir müddətdir "sanksiyalara adekvat cavab veriləcək" deyən Moskva Qərb ölkələrinə qarşı bir sıra addımlar atıb. Rusiya "stop siyahısı"na qarşılıq verərək ABŞ Prezident Co Bayden və dövlət katibi Entoni Blinken başda olmaqla 13 yüksək ranqlı rəsmi şəxsə sanksiya tətbiq edib.**




"Münaqişənin siyasi, iqtisadi və ideoloji cəhətdən qazanan yeganə tərəfi ABŞ-dır"

Kreml tərəfindən vurğulanıb ki, yaxın gələcəkdə rusofob əhval-ruhiyyəli, Rusiyaya qarşı nifrətin qızışdırılmasına töhfə verən Amerika hərbçiləri, qanunvericiləri, iş adamları, ekspertlər və media adamlarının daxil edildiyi növbəti sanksiya siyahısı tərtib olunacaq. Rusiya rəsmiləri qeyd ediblər ki, bu tədbirlər Rusiya Federasiyası Hökumətinin Rusiya iqtisadiyyatını qorumaq və onun davamlı inkişafını təmin etmək üçün maliyyə, bank və digər sahələrdə qəbul etdiyi genişmiqyaslı qərarlarla birlikdə həyata keçiriləcək. Ağ Evin sözçüsü Cen Psaki prezident Baydenin Rusiyanın sanksiya siyahısına salınmasını istehza ilə qarşılayıb. Psaki vurğulayıb ki, Rusiya sanksiyaları amerikalıların nəzərdə tutulan məqsədlərinə ciddi təsir göstərməyəcək.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, Rusiya situasiyaya uyğun cavab tədbirləri görməyə çalışır. Amma siyasi cəhətdən çox uğursuz və gülməli addımlar atır**. Professor deyib ki, prezident, dövlət katibi və digər rəsmi şəxslər Rusiyaya heç turist kimi də gəlmək fikrində deyillər: "Onlar Rusiyada hansısa banka pul qoymayıblar ki, rus hökuməti hesabları dondursunlar. Moskva indiki anda "gözə kül üfürməklə" məşğuldur. Öz aləmlərində bunu "ağıllı" addım, sanksiyalara "adekvat cavab" kimi görürlər.

Qərbin Rusiyaya qarşı hərtərəfli sanksiyaları isə kifayət qədər təsirlidir. Əgər Rusiya Qərbin sanksiyalarına tab gətirə bilsə, bir müddət sonra ölkə iqtisadiyyatı müəyyən mənada bundan faydalana da bilər. Rusiya tədricən idxalı əvəzləyəcək malları istehsal etməyə başlayar. Bunun üçün rusların zəngin resursları və elmi potensialı var. Düzdür, Rusiyada olan biznesmenlərin milyard dollarları ABŞ tərəfindən mənimsənilib. Amerika rəsmən elan edib ki, ölkədəki rus oliqarxların 867 milyard dollar vəsaiti dondurulub. Amma Moskva əlində qalan vəsaitlərlə müəyyən işlər görə bilər. Reallıq isə odur ki, həm Qərbi Avropa, həm Rusiya Ukraynanın əliylə ABŞ-Böyük Britaniya tərəfindən peşəkarcasına siyasi tələyə salınıb. Münaqişənin siyasi, iqtisadi və ideoloji cəhətdən qazanan yeganə tərəfi ABŞ-dır".

**C.Nuriyev vurğulayıb ki, Rusiya məruz qaldığı sanksiyalara görə çökmək həddinə gəlib çatacaq:** "Ancaq qeyd etmək lazımdır ki, Rusiyanın əlində Qərbi Avropanı təhdid etmək üçün rıçaqlar var. Avropanın enerji təhlükəsizliyinin 40 faizdən çoxu Rusiyanın payına düşür. Məhz o səbəbdən Qərbi Avropa ölkələri Kreml əleyhinə sərt sanksiyalara getməlidilər. Lakin ABŞ Rusiya təhdidi ilə Avropa dövlətlərini qorxudaraq müdafiə xərclərinin artırılmasına nail oldu. Avropa qitəsində vahid mövqe nəzərə çarpmır, çünki tez-tez mövqeyini dəyişən Fransa kimi ölkələr var. Faktiki olaraq Avropa siyasi lidersiz, kompassız gəmi kimi hərəkət edir. Nəzərə alaq ki, dünyanı taxılla təmin edən ölkələrin siyahısında ilk dördlükdə Rusiya və Ukrayna dayanır. Bu məqamlar Ağ Evin işinə yarayır. Qısa zaman sonra Avropa, ələlxüsus qitənin qərb ölkələri çox ciddi iqtisadi problemlərlə üzləşəcək və tamamilə Vaşinqtonun təsir dairəsinə düşəcəklər".

**İsmayıl Qocayev**

# Tərəflər Türkiyəyə etimad göstərir



**Mövlud Çavuşoğlu:**
"Vasitəçi rolumuzu bütün çətinliklərə baxmayaraq, davam etdiririk"

**Sergey Lavrov:**
"Türkiyə hazırkı böhrandan irəli gələn tapşırıqlara obyektiv yanaşmağa çalışır"

**"Türkiyə Putin və Zelenskinin görüşünə ev sahibliyi etməyə hazırdır". Bu barədə Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu rusiyalı həmkarı Sergey Lavrovla görüşü zamanı deyib. Çavuşoğlu vurğulayıb ki, Ankara Belarusda keçirilən Rusiya-Ukrayna danışıqlarını dəstəkləyir:**

"Türkiyə olaraq Ukraynada atəşkəsin əldə edilməsi üçün öhdəmizə düşəni etdik və edirik". O, təəssüflə qeyd edib ki, dağıntı, ölümlər və insan faciələri davam edir: "Bu təhlükəli prosesləri dayandırmaq üçün çağırışlarımızı davam etdiririk. Hər birimizin məqsədi eynidir - müharibə dayandırılmalı, insanlar ölməməlidir. Ukraynada axan qanın dayandırılması lazımdır. Müharibədə qazanan olmaz, sülhdən isə uduzan olmaz". O əlavə edib ki, əsas məsələ yer deyil, nəticəyə köklənmiş müzakirələrin başlanmasıdır. Bundan əlavə, Çavuşoğlu Rusiya və Ukraynanın mövqelərində yaxınlaşma olduğunu vurğulayıb: "Ümid edirəm ki, artıq bizim vasitəçiliyimiz ilə bu cür görüşə ehtiyac qalmaz, iki lider davamlı atəşkəs və sülh üçün bir araya gələr".

**"Türkiyə Ukrayna məsələsində obyektiv mövqe tutub"**

**Çavuşoğlu qeyd edib ki, Türkiyə Rusiya-Ukrayna müharibəsində ən başdan hüquqa əsaslanan, sabit və obyektiv mövqe tutub:** "Türkiyə hər iki tərəflə də münasibətləri olan, müharibənin sülh yolu ilə həllini dəstəkləyən ölkədir: "Ukrayna ilə bağlı dürüst vasitəçi rolumuzu davam etdiririk. Türkiyə Ukrayna ilə bağlı əvvəldən konkret mövqe sərgiləyib. Bir çox sınaqlarla qarşı-qarşıya qaldığımız bir dönəmdə bu səfərimi həyata keçirirəm. Sınaq və çətinliklərin olduğu bir vaxtda dialoq və diplomatiya daha çox önəm kəsb edir. Buna görə də Antalyaya gəlib, üçtərəfli görüşdə iştirak etdiyinizə görə bir daha təşəkkür edirəm. Antalya Diplomatiya Forumuna verdiyiniz dəstək üçün ayrıca təşəkkür edirəm. Təbii ki, bu gün görüşdə böhranı müzakirə edəcəyik. Ukrayna böhranının sülh yolu ilə nizamlanması mövzusunda çalışmalarımız və düşüncələrimizi gündəmə gətirəcəyik. Türkiyə Ukrayna ilə bağlı əvvəldən konkret bir mövqe sərgiləyib. Türkiyə balanslı, obyektiv və haqdan və hüquqdan tərəf olan mövqeyini açıq göstərib. Hər iki tərəflə münasibətləri yaxşı olan bir ölkə olaraq dürüst bir vasitəçi rolumuzu bütün çətinliklərə baxmayaraq, davam etdiririk. Montro müqaviləsini də hər zaman olduğu kimi yenə tam olaraq tətbiq edəcəyimizi açıqlamaq istəyirəm. Bununla bağlı dörd Rusiya gəmisinin boğazlardan keçməməsi ilə bağlı aldığınız qərarı məmnuniyyətlə qarşıladıq".

**"Formalaşan etibar sayəsində bu gün bir masa ətrafındayıq"**

**Türkiyə XİN rəhbəri ikitərəfli münasibətlərdə Suriya və Liviya məsələlərinin uğurla həll edildiyini xatırladıb:** "Bu günə qədər ikitərəfli münasibətlərlə yanaşı, bir çox mürəkkəb dosyelərdə, Suriya olsun, Liviya olsun, Rusiya ilə birgə çalışdıq. Bu çalışmalarımız çərçivəsində formalaşan etibar sayəsində bu gün bir masa ətrafındayıq. Bu etibara görə bir daha təşəkkür edirəm. İkitərəfli münasibətlərimizin əhatə dairəsi çox genişdir. Rusiya-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 9-cu iclasının hazırlığı və ikitərəfli münasibətlərimizin bütün istiqamətlərini bu gün sizinlə birlikdə müzakirə etmək fürsəti əldə etdiyim üçün məmnunam".

**"Ukrayna məsələsində Türkiyə ilə mövqeyimiz üst-üstə düşmür"**

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşün protokol hissəsində çıxışında bildirib ki, Türkiyə ilə müntəzəm və etibarlı siyasi dialoqumuz var.** XİN başçısı iki ölkə arasında bu gün müxtəlif səviyyələrdə təmasların dərin simvolik əhəmiyyətə malik olduğunu vurğulayıb: "Xatırladım ki, məhz bu gün, 16 mart 1921-ci ildə Sovet İttifaqı ilə Türkiyə Böyük Millət Məclisi arasında dostluq və qardaşlıq haqqında müqavilə imzalanıb". Lavrov türkiyəli həmkarı ilə görüşün əsas mövzusunun Ukrayna olduğunu bildirib: "Əgər xarici siyasət mövzusundan danışsaq, onda bu gün bizim üçün əsas mövzu Ukraynadır, oradakı vəziyyətin tezliklə nizamlanmasıdır. Sirr deyil ki, bizim Ukrayna məsələsində mövqeyimiz üst-üstə düşmür. Lakin biz Türkiyənin tutduğu mövqeni qiymətləndiririk və böyük hörmətlə yanaşırıq. Türkiyə hazırkı böhrandan irəli gələn tapşırıqlara obyektiv yanaşmağa çalışır".

**"Ankaranın məsuliyyətli yanaşmasını müsbət qiymətləndiririk"**

**Lavrov bəyan edib ki, Rusiya Ankaranın Möntrö Boğazlar Konvensiyasının öhdəliklərinə riayət olunması ilə bağlı məsuliyyətli yanaşmasını qiymətləndirir:** "Əlbəttə ki, biz Ankaranın Möntrö Konvensiyasının öhdəliklərinə riayət olunması ilə bağlı məsuliyyətli yanaşmasını görürük və qiymətləndiririk". Lavrov Ukraynadakı vəziyyətdən başqa, türkiyəli həmkarı ilə Suriya, Liviya, Əfqanıstan və Cənubi Qafqazdakı vəziyyəti də müzakirə edəcəklərini qeyd edib: "İkitərəfli gündəmimiz də olduqca zəngin və çoxplanlıdır. Biz Rusiya-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasına hazırlığa xüsusi diqqət yetirəcəyik, hansı ki, rəhbərliyimiz iclasın Türkiyədə keçirilməsi barədə razılaşıb. Əminəm ki, hazırkı şəraitdə biz iclasın keçirilmə vaxtını razılaşdıra biləcəyik. Hesab edirəm ki, danışıqlarımız və sizin səfəriniz olduqca yerinə düşüb. Bir daha xoş gəlmisiniz!".

**"Görüş naminə görüşün keçirilməsini istəmirik"**

**Lavrov Putin-Zelenski görüşü üçün Moskvanın şərtini açıqlayıb. Qeyd edib ki, türkiyəli həmkarı ilə Putin və Zelenskinin görüşünün mümkünlüyünü müzakirə etməyib:** "Bu görüşün təşkilinə heç bir maneə yoxdur. Biz görüş naminə görüşün keçirilməsini istəmirik. Rusiya Ukrayna tərəfi ilə yalnız problemlərin həllində konkret nəticələrə gətirib çıxaracaq görüşlər üzrə danışıqlar aparacaq". Lavrov onu da bildirib ki, Moskva Rusiya, Ukrayna və Türkiyə xarici işlər nazirləri arasında üçtərəfli formatda ünsiyyəti davam etdirməyə hazırdır. Rusiya və Türkiyənin regional münaqişələrin nizamlanmasında birgə fəaliyyətindən danışan Sergey Lavrov qeyd edib ki, Suriya, Liviya və Qarabağda iki ölkənin diplomatları və hərbçilərin birgə səyləri nəticəsində dayanıqlı atəşkəs rejimini qoruyub saxlamaq mümkün olub.

**"Rusiya Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasını dəstəkləyir"**

**Lavrov bəyan edib ki, Moskva Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasını alqışlayır:**

"Biz Türkiyə-Ermənistan ikitərəfli münasibətlərinin normallaşması kursunu alqışlayırıq. Öz tərəfimizdən Cənubi Qafqaz ölkələri arasında münasibətləri dərinləşdirəcək bütün istiqamətlərdəki birgə işə hazır olacağıq". O, türkiyəli həmkarı ilə müntəzəm təmasları davam etdirməyi razılaşdırdıqlarını vurğulayıb: "Müntəzəm təmaslarımız öz praktiki faydasını sübut edib".

**İsmayıl**



**Milli Məclisin ötən iclasında 2021-ci ilin hesabatını təqdim edən Baş nazir Əli Əsədov qlobal bazarda ərzaq bahalaşmasının Azərbaycana mümkün təsirlərindən danışıb.**

Baş nazir bildirib ki, ərzaq təhlükəsizliyinin təmini əsas vəzifələr sırasındadır. Ə.Əsədov qeyd edib ki, mövcud vəziyyəti nəzərə alaraq, kənd təsərrüfatı məhsullarının istehsalını artırmalı, idxaldan asılılığın azaldılmasına nail olmalıyıq: "Bunun üçün aqrar sektorun inkişafında əsaslı dönüş yaratmalıyıq. Kənd təsərrüfatı bizim üçün həm iqtisadi, həm sosial, həm də təhlükəsizlik məsələsidir. Daxili bazarda ərzaq təhlükəsizliyi istiqamətində tədbirlər görmək məqsədilə Dövlət Ehtiyatlar Agentliyi yaradılıb. Azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin həyata keçirilməsi hökumət qarşısında qoyulan əsas prioritetdir". Baş nazir əlavə edib ki, ölkəmizdə əsas ərzaq məhsulları üzrə lazımi həcmdə ehtiyatlar yaradılıb: "Ehtiyatlarımızı, o cümlədən taxıl ehtiyatlarımızı dəfələrlə artırmaq üzərində çalışırıq. Məsələ tək taxılda deyil. Uşaq qidasından başlamış digər məhsullarda da qiymət artımları var. Minimum istehlak səbətinə aid olan 11-12 cür ərzaq məhsulu üzrə problemlər var. Hökumət bu məsələlərlə məşğul olur". Ekspertlərin fikrincə, son dövrlər dünya bazarında müşahidə olunan bahalaşma Rusiya-Ukrayna müharibəsindən dolayı daha kəskin hal almaqdadır.

# Ən yüksək qiymət artımı bu il olacaq

## Ərzaq məhsullarının qıtlığı uzun müddət davam edəcək

"İşğaldan azad olunan ərazilərimizin məhsuldar torpaqlarının daha qısa zamanda əkin fonduna daxil edilməsi vacibdir"

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə bildirib ki, Rusiyaya tətbiq edilən 4-cü sanksiyalar paketi ilə şimal qonşumuzdan bir sıra məhsulların idxalına qadağa qoyulub. Rusiya da bəzi ərzaq, o cümlədən taxıl və şəkərin ixracatını payızadək dayandırıb. Deputatın sözlərinə görə, Birləşmiş Millətlər Təşkilatı qlobal bazarda qiymət artımlarının davam edəcəyini bəyan edib:** "Təşkilatın hesablamalarına görə, dünya bazarında ərzaq məhsullarının qiymətləri növündən asılı olaraq ən azı 8-22 faiz intervalında yüksələcək. Rusiya-Ukrayna müharibəsi artıq regionda və eləcə də qlobal bazarda qiymət artımlarına səbəb olub. Həmçinin, Rusiyanın özündə də bir sıra ərzaq məhsullarının qıtlığı müşahidə olunur. 2021-ci ildə olduğu kimi bu ildə də dünya bazarında yüksək qiymət artımlarının olacağı proqnozlaşdırılır.

Rusiyaya tətbiq olunan sanksiyalar və eləcə də bir sıra ölkələrin ərzaq məhsullarının ixracatındakı qadağalar ərzaq təhlükəsizliyi və təminatı məsələsini daha da aktuallaşdırır. Azərbaycan da bir sıra ərzaq məhsullarının əhəmiyyətli hissəsini xaricdən alır və bu baxımdan da idxal inflyasiyası qaçılmazdır. Bu kontekstdən əsas strateji ərzaq məhsullarına olan tələbin yerli istehsal hesabına ödənilməsi və xüsusən də işğaldan azad olunan ərazilərimizin məhsuldar torpaqlarının daha qısa zamanda əkin fonduna daxil edilməsi vacibdir. Görünən odur ki, dünya bazarına qiymət artımları ilə yanaşı bəzi ərzaq məhsullarının qıtlığı problemi hələ uzun müddət davam edəcək".

**İsmayıl Qocayev**

# "Hamımız mühakimə olunacağıq"

## Rusiyalı hərbi əsir: "Ukraynada terror aktlarını dayandırın"



**Rusiyalı hərbi əsirlər Ukraynada törədilən hadisələrə görə utanırlar. "Şərq" "CNN"ə istinadən xəbər verir ki, onlar Rusiyanın atdığı addımlar qarşısında gərgin vəziyyətdədirlər. Əsirlərdən biri hadisələrə belə münasibət bildirib:**

"Mən baş komandanımıza demək istəyirəm ki, Ukraynada terror aktlarını dayandırsın, çünki geri qayıdanda ona qarşı çıxacağıq. Etdiyimiz hər bir cinayətlərə görə hamımız mühakimə olunacağıq".

Bunlar hazırda rəsmi Kiyevin əlində olan rus hərbi əsirlərinin səsləridir.

Onların ictimai çıxışları dövlətlərə hərbi əsirlərin alçaldılmasını qadağan edən Cenevrə Konvensiyalarına əsasən şübhə doğura bilər.

Yəni əsir götürülənlərə təzyiq olunduğu düşünülə bilər.

Lakin CNN-ə danışan Rusiya Hərbi Hava Qüvvələrinin əsir götürülmüş 3 pilotu heç bir təzyiqdən danışmadılar. Onların sözləri daha əvvəl əsir götürülmüş rus hərbçilərinin fikirləri ilə səsləşir. Onlar bildiriblər ki, müharibədə döyüşmək istəmirlər.

CNN-in həmin əsirlərlə müsahibəsi onların dərin narahatlıq keçirdiklərini, baş komandanları və Rusiya Prezidenti Vladimir Putinin ünvanına sərt sözlər dediklərini ortaya qoyub.

**Cəmilə Əzim**



# "Baş nazirlərin hərəkəti Ukraynaya psixoloji dəstək idi"

## Araz Aslanlı: "Çavuşoğlunun səfəri isə Ukrayna böhranının həlli baxımından hələ ki, ən uğurlu və cəsarətli təşəbbüs kimi diqqəti cəlb edir"

**"Ukrayna böhranı ilə bağlı son 24 saatda iki hadisə xüsusilə ön plana çıxdı. Birincisi, Polşa, Çexiya və Sloveniyanın baş nazirlərinin Kiyevə səfəri, ikincisi isə Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlunun Rusiya və Ukraynaya səfəri çərçivəsində keçirilən görüşlərdir".**

**Bunu politoloq Araz Aslanlı deyib. Analitik bildirib ki, ilk məqam Ukraynaya ilk növbədə psixoloji dəstək kimi çox lazım idi:**

"Üç ölkənin baş nazirlərinin hərəkəti cəsarətli addım və yaxşı dəstək kimi qiymətləndirilə bilər. Eyni zamanda aydındır ki, bu səfərlə bağlı qərar sadəcə üç liderə aid deyil. Qərbin ümumi qərarı və Ukraynaya dəstəyinin simvoludur. Səfər edənlər arasında Almaniya, Fransa və İngiltərədən heç olmasa birinin rəhbərinin olması daha fərqli hava yarada bilərdi. Amma 2008-ci ildə Rusiyanın Gürcüstanı işğalı zamanı olduğu kimi Qərb orta səviyyəli nümayəndə heyəti göndərməyə qərar verdi. Çavuşoğlunun səfəri isə müharibəni dayandırmaq və Ukrayna böhranının həlli baxımından hələ ki, ən uğurlu və cəsarətli təşəbbüs kimi diqqəti cəlb edir".

**A.Aslanlı qeyd edib ki, Çavuşoğlu müharibə başladıqdan sonra hər iki tərəfi öz ölkəsində ziyarət edən yeganə yüksək səviyyəli vasitəçidir:** "Eyni zamanda iki tərəf arasında qısa müddət öncə baş tutmuş ən yüksək səviyyəli müzakirənin vasitəçisidir. Çavuşoğlunun Ukraynaya səfər edərək danışıqları orada davam etdirməsi planlaşdırılır. Ukraynadan sonra yenidən Moskvaya qayıda bilər. Həm Kiyevə baş naziri səfər edən üç ölkə, həm də Türkiyə səmimi şəkildə, mümkün qədər tez vaxtda müharibənin bitməsini və atılan addımların nəticə verməsini arzulayır, bu istiqamətdə əlindən gələni edir. Amma eyni zamanda ehtimal olunur ki, Şərqi Avropa dövlətləri hazırda Ukraynada müharibənin dayanmasını Ukraynanın ərazi bütövlüyündən daha önəmli görürlər. Bu, tərəflər arasında azacıq da olsa fikir ayrılığına səbəb ola bilər".

**İsmayıl**

# Polşa, Çexiya və Sloveniya Kiyevin yanındadır

## Serbiya, Xorvatiya, Slovakiya və Bolqarıstan fərqli mövqe nümayiş etdirirlər

**Polşa, Çexiya və Sloveniya baş nazirləri Ukraynaya dəstək üçün Kiyevə səfər ediblər. Ukrayna Prezidenti Vladimir Zelenski Kiyevdə həmin ölkələrin baş nazirləri ilə görüşüb. Səfəri təşkil edən şəxsin Polşanın Baş naziri Mateuş Moravetski olduğu deyilir.**

Polşa slavyan əsilli xalq olsa da, ən az Ukrayna qədər Rusiyadan nifrət edir. Məsələnin tarixi aspekti bir yana, siyasi baxımdan Varşava-Moskva münasibətləri hər zaman soyuq və ehtiyatlı olub. Rəsmi Varşava Qərbdən və ABŞ-dan Ukraynaya gələn yardımın öz ərazisindən sərbəst keçməsinə şərait yaradır. Bundan başqa Polşa tərəfi Ukraynaya silah və iqtisadi yardım da edir.

Çexiya da bənzər şəkildə Rusiyaya qarşı soyuq münasibət göstərib. Mövcud Ukrayna-Rusiya müharibəsi isə bu münasibətləri daha da gərginləşdirib. Çexiyanın Baş naziri Petr Fiala müharibə ilə əlaqədar Rusiya vətəndaşlarına viza verilməsini dayandırıb. Bundan başqa rəsmi Praqa Ukraynada Rusiyaya qarşı döyüşmək istəyən Çexiya vətəndaşlarına icazə verib. Hətta Çexiya Müdafiə naziri Yana Çernoxova açıqlayıb ki, 400-ə yaxın könüllü Ukraynada döyüşmək üçün müraciət edib.



"Ukrayna-Rusiya müharibəsi uzandıqca slavyan dövlətlər də Kiyev və Moskva arasında qütbləşəcək"

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə bildirib ki, Polşa, Çexiya və Sloveniyanın əksinə, Serbiya, Xorvatiya, Slovakiya və Bolqarıstan Ukraynaya dəstək nümayiş etdirmir:** "Daha doğrusu, adları çəkilən ölkələr kimi birbaşa yardım etmirlər. Düzdür, burada ölkələrin mövcud müharibəyə yanaşma fərqlilikləri olsa da, hesab edirəm, əsas fərq bu ölkələrin Kremli panslavyan ideologiyasının mərkəzi, eyni zamanda slavyan ölkələrinin lideri kimi görmələridir. Serbiya və Bolqarıstan tarixi və siyasi baxımdan Kremllə ən sadiq dövlətlərdir. Xorvatiyaya gəldikdə isə Prezident Zoran Milanoviç Ukrayna ilə Rusiya arasında müharibədən öncə açıqca qeyd etmişdi ki, ölkəsi bu müharibədə NATO ilə birlikdə iştirak etməyəcək. Yəni Qərbə ən yaxın sayılan Xorvatiya belə Ukrayna-Rusiya müharibəsində Kiyevi dəstəkləmədiyi kimi, Kreml əleyhinə formalaşan qütbdə yer almaq istəmir. Nəticə etibarilə deyə bilərik ki, Ukrayna-Rusiya müharibəsi uzandıqca slavyan dövlətlər də Kiyev və Moskva arasında qütbləşəcək. Bu qütbləşmə müharibə sonrası özünü daha qabarıq formada göstərə bilər".

**İsmayıl Qocayev**






# "Dostlarıma salam söyləyin..."

## "Günəşdən usanan" Rüstəm İbrahimbəyov həyata vida etdi

**"Səhranın bəyaz günəşi"nin son mənzilə yola salınması mərasimi dünən "Nizami" Kino Mərkəzində keçirildi.**

**Kim idi Rüstəm İbrahimbəyov? Xalq yazıçısı, dramaturq, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, görkəmli senarist və rejissor, "Oskar" mükafatçısı... sevə-sevə izlədiyimiz, illər keçsə də dadı-duzu itməyən ən yaxşı filmlərimizin, mənalı povestlərin, romanların müəllifi... Qeyd edək ki, R.İbrahimbəyovun vəfat xəbərindən sonra Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyeva nekroloq imzaladı. Nekroloqda mərhumun həyatı, Azərbaycan mədəniyyəti tarixində dərin iz buraxan, çoxşaxəli yaradıcılığı yüksək dəyərləndirilirdi.**

Dünənki vida mərasimində dövlət rəsmiləri, mədəniyyət və incəsənət xadimləri, mərhumun ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak edirdi. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın vida mərasiminə göndərdiyi əklillə yanaşı rəsmi qurumlar, təşkilatlar adından da əklillər vardı. R.İbrahimbəyovun dostları, məsləkdaşları, ona dəyər verən yüzlərlə insan, sadə vətəndaşlar görkəmli yazıçı və kinorejissorla vidaşlamağa, onu son mənzilə yola salmağa gəlmişdi. Vida mərasiminə gələnlər mərhumun ailə üzvlərinə başsağlığı verir, səhnədə qoyulmuş cənazənin önündən hörmətlə keçir, əllərindəki gülləri həyatında böyük uğurlar qazanmış insana ərməğan edirdilər. Bunlar Rüstəm İbrahimbəyova təqdim edilən son çiçəklər idi...

Vida mərasiminin rəsmi hissəsində cənab Prezident İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyevanın imzaladığı nekroloq oxundu: "Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan ədəbiyyatının və kino sənətinin görkəmli nümayəndəsi, tanınmış nasir, dramaturq, senarist və rejissor, Azərbaycan Respublikasının Prezidentinin fərdi təqaüdçüsü, Dövlət mükafatları laureatı, Əməkdar incəsənət xadimi, Xalq yazıçısı Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyov 2022-ci il martın 10-da ömrünün 84-cü ilində vəfat edib. R.İbrahimbəyov 1939-cu il fevralın 5-də Bakı şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1956-1962-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda ali təhsil alıb, əmək fəaliyyətinə 1962-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasında başlayıb. Gənc yaşlarından ədəbiyyat və kino sənəti ilə yaxından maraqlanan R.İbrahimbəyov Moskvada 1967-ci ildə ali senarist kursunu, 1974-cü ildə ali rejissorluq kursunu bitirib. R.İbrahimbəyov müasir Azərbaycan ədəbiyyatının və kinematoqrafiyasının görkəmli simalarındandır. O, çoxcəhətli fəaliyyəti ilə ölkəmizin hüdudlarından kənarda da tanınırdı. Nəsrimizin yeni mərhələyə qədəm qoymasının fəal iştirakçısı olan Rüstəm İbrahimbəyov öz səmərəli yaradıcılığı ilə bədii-estetik fikrin zənginləşməsində mühüm rol oynadı, yarım əsrdən artıq müddət ərzində ədəbi-mədəni mühitin inkişafına töhfələr verdi. Sənətkarın sosial-mənəvi problemləri, dramatik konfliktləri və müasirlərimizin daxili aləmini həyat həqiqətləri əsasında ustalıqla əks etdirən povestləri və hekayələri, pyesləri və senariləri ədəbiyyatımızın və milli kino sənətinin məzmunca yeniləşməsində əhəmiyyətli rol oynadı. Onun əsərləri əsasında 40-dan çox bədii və televiziya filmləri çəkilib. Mühüm sosial həqiqətlərdən söz açan, rəngarəng və dolğun obrazlarla zəngin bu əsərlər özünəməxsus dəst-xətti ilə seçilən sənətkara böyük oxucu və tamaşaçı auditoriyasının rəğbətini qazandırdı. R.İbrahimbəyovun senarist və rejissor olaraq kinematoqrafiyanın inkişafında da təqdirəlayiq xidmətləri vardır. Yazıçının senariləri əsasında çəkilən "Bir cənub şəhərində", "Səhranın bəyaz günəşi", "İstintaq", "Ad günü" və bir çox digər filmlər geniş şöhrət taparaq yüksək mükafatlarla təltif edilib. Onun həmmüəllif senaristi olduğu "Urqa" filmi 1991-ci ildə Venesiya Beynəlxalq Kinofestivalının ali mükafatına, "Günəşdən usanmışlar" filmi isə 1994-cü ildə Kann Beynəlxalq Kinofestivalının ali mükafatına və 1995-ci ildə Amerika Kino Akademiyasının "Oskar" mükafatına layiq görülüb. Rüstəm İbrahimbəyov bədii yaradıcılıqla yanaşı, eyni zamanda ictimai fəaliyyət də göstərib. O, 1967-1981-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin katibi, 1981-1985-ci illərdə birinci katibi, 1986-1991-ci illərdə SSRİ Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin katibi, 1990-cı ildən ömrünün sonunadək Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri olub, 1989-cu ildə SSRİ Ali Sovetinin deputatı seçilib. R.İbrahimbəyovun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. O, 1976-cı ildə "Əməkdar incəsənət xadimi", 1998-ci ildə "Xalq yazıçısı" fəxri adlarına, Azərbaycan ədəbiyyatının və kino sənətinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının ali dövlət təltifi olan "Şöhrət" ordeninə layiq görülüb. Görkəmli yazıçı və kino xadimi Rüstəm İbrahimbəyovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır. Allah rəhmət eləsin!".

**"Azərbaycan mədəniyyəti üçün ən kədərli günlərdən biridir"**

Vida mərasimində çıxışı zamanı Mədəniyyət naziri Anar Kərimov qeyd etdi ki, R.İbrahimbəyov 60 il Azərbaycan mədəniyyətinə xidmət edib: "O həm də mədəniyyət və incəsənətimizin dünyada tanıdılmasında müstəsna xidmətlər göstərib. Bu mərasimi keçirməklə onun ailəsinə, yaxınlarına və ümumiyyətlə, Azərbaycan və Rusiya ictimaiyyətinə başsağlığı verirəm". "Onun əsərlərinə çox gözəl filmlər çəkilib, onlar Azərbaycan mədəniyyət salnaməsinə qızıl hərflərlə yazılıb. Onun fəaliyyəti təkcə kino ilə məhdudlaşmayıb, həm də teatr tamaşalarına quruluş verib. Bu da onun çoxşaxəli fəaliyyətindən xəbər verir. Onun yaratdığı yeni obraz və üslublar daim Azərbaycan xalqının qəlbində yaşayacaq", - nazir vurğulayıb. Mərasimdə çıxış edən mədəniyyət və incəsənət xadimləri R.İbrahimbəyovla bağlı xatirələrini bölüşüb, xalq yazıçısının ölümünü ağır itki kimi qiymətləndiriblər. Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Rzayev bildirib ki, kino, ədəbiyyat, teatr sənəti böyük sənətkarı itirib: "O mənim 60 illik etibarlı dostum idi. Rüstəm çox vaxt Bakıdan uzaqda olsa da, həmişə ürəyi Azərbaycanla döyünürdü. İndi isə əbədi olaraq Azərbaycan torpağına qayıtdı. Onun əsərlərini yaşatmağa ehtiyac yoxdur. Onlar özü yaşayacaq. Biz Rüstəm İbrahimbəyovun yaratdığı "İbrus" Teatrını yaşatmalıyıq".

**"Azərbaycan mədəniyyətinin böyük şəxsiyyətini itirdik"**

**Bu sözləri vida mərasimində Xalq yazıçısı Çingiz Abdullayev söyləyib:** "O, dünyada yeganə adam olub ki, 6 ölkənin mükafatını alıb. Dünyada ikinci belə adam yoxdur. Bu gün neçə ölkədən məktub gəlib. Rusiyadan da, Ukraynadan da bizə məktublar göndərilib. Onlar bilir ki, dünya necə dəyərli insanı itirib".

**Xalq artisti, görkəmli aktyor Rasim Balayev isə jurnalistlərə açıqlamasında dost itkisinin ağır olduğunu deyib:** "Rüstəm İbrahimbəyov həmişə sağlam, enerjili olub. Eşitdiyimə görə, ABŞ-a getməyə hazırlaşırmış. O, mənim üçün həm dost, həm də Azərbaycan mədəniyyətinin flaqmanlarından biri olub. Son dövrlərdə Azərbaycan incəsənətinin yetişdirdiyi iki nəhəng simadan biri vəfat edib. Onların biri Rüstəm İbrahimbəyov, digəri isə Tahir Salahov idi".

**"Yaxşı ki, atam Vətəndə dəfn edilir"**

**Bunu mediaya açıqlamasında mərhumun oğlu Fuad İbrahimbəyov deyib:** "Yaxşı ki, atam öz vətənində dəfn olacaq. O, istedadlı yazıçı, gözəl ata idi. Əlbəttə, bu, bizmi üçün gözlənilməz oldu. Ata itkisi



övlad üçün ağırdır. Atam son sözündə dedi ki, dostlarıma salam söyləyərsən". Fuad İbrahimbəyov atasının cənazəsinin Azərbaycana gətirilərək Bakıda Fəxri Xiyabanda dəfn olunmasına görə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirib.

**Xalq şairi Ramiz Rövşən də R.İbrahimbəyovun ölümünü ağır itki adlandırıb:** "Xalqımız çox böyük sənətkarını itirib. Rüstəm İbrahimbəyov bir millət, xalq, hətta dünya üçün əvəzolunmaz şəxsdir. Onun gedişindən sonra böyük bir boşluq görünür. O boşluq hər yerdən sezilir və getgedə daha sıx görünəcək".

Xatırladaq ki, R.İbrahimbəyov martın 10-dan 11-nə keçən gecə Rusiyanın paytaxtı Moskva şəhərində vəfat edib. Onun cənazəsi martın 15-i Vətənə gətirilib. Və dünən I Fəxri Xiyabanda, qardaşı, Xalq yazıçısı Maqsud İbrahimbəyovun məzarı yanında dəfn edilib. Dəfn mərasimində dövlət rəsmiləri, mədəniyyət və incəsənət xadimləri, ziyalılar iştirak edib.

**Allah rəhmət eləsin, ruhu şad olsun.**

**Məlahət Rzayeva**

**P.S.** *"Şərq" qəzetinin kollektivi xalq yazıçısının vəfatıyla bağlı mərhumun ailəsinə və xalqımıza başsağlığı verir.*




# "Putin indiki vəziyyətdə hər şeyə hazır görünür"

## "Çünki hansısa bir çıxış yolu yoxdur"

**NATO-ya üzv ölkələrin müdafiə nazirləri alyansın Belçikanın paytaxtı Brüsseldəki mənzil-qərargahında toplanıblar. Rusiyanın Ukraynaya hücumlarına son qoymaq səylərinin müzakirə olunacağı toplantı baş katib Yens Stoltenberqin iştirakı ilə keçirilib.**

NATO-nun iclasına alyansa üzv olmayan Ukrayna, Gürcüstan, İsveç və Finlandiyanın müdafiə nazirləri, həmçinin Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borrel də dəvət olunub.

İclasdan əvvəl NATO-nun baş katibi Stoltenberq ABŞ-ın Müdafiə naziri Lloyd Austin ilə birlikdə jurnalistlərə açıqlamasında Rusiyanın Ukraynaya hücumunu "amansız işğal" adlandırıb.

Böhranın Ukrayna hüdudlarından kənara çıxmaması üçün məsuliyyətin NATO-nun üzərinə düşdüyünü bildirən Stoltenberq qurumun alyansın şərqindəki varlığını artırdığını qeyd edib.

**Görüşü "Şərq"ə izah edən siyasi şərhçi Rusif Məmmədsoy Vladimir Putini məğlub kimi dəyərləndirib:**

"Hazırda dünyada çox ciddi proseslər baş verir. Dünya böyük bir təhdidlə qarşı-qarşıyadır. Bu da nüvə silahı və onu hər an hərəkətə gətirə biləcək Vladimir Putindən ibarətdir. NATO ölkələrinin əsas müzakirə mövzusu da məhz bu istiqamətdə olacaqdı. Hər kəsi bir sual düşündürür. Putini necə dayandıraq? O, indiki vəziyyətdə hər şeyə hazır görünür. Çünki hansısa bir çıxış yolu yoxdur.

Rusiya faktiki olaraq Ukraynaya hücumla siyasi, iqtisadi və strateji məğlubiyyətə uğrayıb. Bütün bu baş verənlərdən sonra rəsmi Moskva ilə Ukrayna arasında sülh müqaviləsi imzalansa belə, Vladimir Putin bunun cavabını öz cəmiyyətinə verə bilməyəcək".

**Siyasi şərhçi vurğulayıb ki, Qərb NATO ölkələrini qorumaq üçün diqqətli olmalıdır:**

"Bu mənada Qərb NATO ölkələrinin təhlükəsizliyi ilə bağlı bir daha fikirləşməlidir. Hətta Vladimir Zelenski də açıqlamasında bildirib ki, əgər Putini dayandırmasanız, növbəti hədəf Şərqi Avropa ölkələri, Polşa və s. olacaq. Bu görüşün də məğzini toxunduğum nüanslar təşkil edir".

**Cəmilə Əzim**

# Beynəlxalq sistemdə vəziyyət dəyişir

## ABŞ Azərbaycan və Ermənistana münasibətdə Bakıya üstünlük verir

**Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinken Prezident İlham Əliyevə zəng edib. Söhbət zamanı Cənubi Qafqaz regionunda postmünaqişə dövrünə aid məsələlər, o cümlədən Ermənistanla Azərbaycan arasında normallaşma prosesi barədə fikir mübadiləsi aparılıb.**

Telefon danışığı əsnasında regional təhlükəsizlik məsələləri də müzakirə edilib. Blinken Ukraynaya humanitar yardım göstərdiyinə görə Azərbaycana təşəkkürünü bildirib. Ermənistan və Azərbaycan hərbi qüvvələri arasında eskalasiya ilə bağlı xəbərlərə toxunan dövlət katibi tərəfləri təmkin nümayiş etdirməyə və bütün həll edilməmiş məsələlərin hərtərəfli həlli yollarını tapmaq üçün diplomatik fəaliyyəti gücləndirməyə çağırıb.

**ABŞ-dan gələn zəngi "Şərq"ə dəyərləndirən siyasi şərhçi Aqşin Kərimov Rusiya-Ukrayna müharibəsinin davam etdiyi zamanda ABŞ Kremlin digər regionlardakı, o cümlədən Cənubi Qafqazdakı təsir dairəsini zəiflətmək cəhdlərinə girişib.** Analitik vurğulayıb ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesində özünü qabağa salmağa çalışan ABŞ hegemonluq iplərini əlindən buraxmaq niyyətində olmadığını göstərir: "Hər şey ondan başlayır ki, Azərbaycan Ermənistana sülh üçün 5 maddəlik baza prinsipi təklif edir, İrəvan isə topu ATƏT-in Minsk qrupu həmsədrlərinin meydançasına atır. Türkiyə Azərbaycan-Ermənistan münasibətlərinin yoluna qoyulmasında aktiv təşəbbüskar missiyası ilə çıxış edir və bunu rəsmi Bakı ilə koordinasiyalı şəkildə həyata keçirir. Bakı ilə İrəvan arasında buzların əriməsi üçün yeni mərhələ məhz Antalya Diplomatiya Forumunda başladıldı. Ermənistanın da həmsədrlərə müraciəti "post-Antalya" dövrünə təsadüf etdi. ABŞ-la Türkiyə sadəcə NATO maraqları çərçivəsində birgə maraq ifadə edə bilərlər. Amerika tərəzinin gözünün Ankara tərəfinə əyilməsinə yol verməməyə çalışır. Cənubi Qafqazdakı postmünaqişə dövrü Türkiyə ilə Rusiyanı bir-birinə daha da yaxınlaşdırıb. Amma Moskva da proseslərdə Ankaranın birinci dərəcəli olmasına qarşı strateji duruş sərgiləyir. Fransaya gəlincə, onun hazırkı sükutunun səbəbi Avropanın Azərbaycan qazına ehtiyacı ilə bağlıdır. Buna görə, Bakı indi rəsmi Paris üçün siyasi-iqtisadi fayda gətirən məkan rolunu oynayır. Ancaq Fransa siyasətinin qayəsindəki Azərbaycan və Türkiyəyə qarşı hikkə hələ də soyumayıb. Sadəcə, Paris situativ möhtaclar səbəbindən bir qədər geri çəkilmiş görüntüsünü yaradır".




*Ekspertə görə, Ermənistanın həmsədrlərə müraciətindən sonra diplomatik-siyasi trafiklərdə də canlanma müşahidə edilir:* "ABŞ dövlət katibi Entoni Blinken martın 14-də

**"Məqsəd isə Rusiyanın Cənubi Qafqazda hərbi mövcudluq imkanlarını minimuma endirməkdir"**

Ermənistanın Baş naziri Nikol Paşinyanla, martın 15-də isə Azərbaycan Prezidenti ilə telefon danışığı aparıb. Beynəlxalq sistemdə baş verənlərə münasibətdə ABŞ-ın Azərbaycana və Ermənistana münasibətində üstünlük Bakıya verilir. Söhbət ondan gedir ki, Blinken yalnız ölkə rəhbəri İlham Əliyevlə telefon danışığında Azərbaycan dövlət başçısına Ukrayna münaqişəsində sərgilədiyi mövqeyə görə təşəkkür edib. Blinkenin dövlət başçısı İlham Əliyevə zəngi həm də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində baş verən insidentlər kontekstində diqqət çəkir. Mümkündür ki, ABŞ bu məsələdə Azərbaycanın yanında yer alır. Məqsəd isə Rusiyanın Cənubi Qafqazda hərbi mövcudluq imkanlarını minimuma endirməkdir. Amma Azərbaycan ölkə ərazisini böyük oyunçuların rəqabət meydanına çevirmək siyasətindən uzaqdır, verilən siyasi qərarlar Azərbaycanın qırmızı cizgilərini özündə ehtiva edir. Rəsmi Bakı prinsipcə, həmsədrlərin sülhyaratma prosesində iştirakına qarşı deyil. Lakin Bakı ilə Ankara birgə səylərlə bu iştirakı praqmatik siyasətə köklənən prinsiplərə əsaslanmasını tələb edir. Blinkenlə Prezident İlham Əliyev yəqin ki, Azərbaycan-İran anlaşması barədə də müzakirə aparıblar. Çünki regionda İranla bağlı baş verən istənilən hadisə Ağ Evin diqqət mərkəzində olur. Ümumən, Blinkenin telefon zəngindən çıxan nəticə budur ki, Vaşinqton Ukraynadakı müharibə səbəbilə Rusiyanı bütün cəbhələrdə hərbi iştirakdan kənarda qoymağa istəyir. Buna görə də sülhyaratma prosesinə öz siyasi töhfəsini verməklə "minimum şəkildə Rusiya" prinsipini önə çəkir. Həmçinin, Azərbaycan-İran münasibətlərində Bakının maraqlarına önəm verir. Çünki Azərbaycan Qərb-İran münasibətlərində Qərb üçün əhəmiyyətli rola malikdir".

**İsmayıl Qocayev**




dəmə gətirdilər.

2019-cu ildə Madrid prinsiplərinin qəbul edilmiş yekun müddəalarında nəzərdə tutulan bir qayda var. Bu, bölgənin taleyi ilə bağlı referendum keçirilməsi və xalqların öz müqəddəratını təyin etməsi məsələsi ilə bağlıdır”.

**Ekspert onu da qeyd edib ki, bu müddəalar Qarabağda yaşayan ermənilərə aid edilə bilməz:** ”BMT-nin digər prinsipi dövlətlərin ərazi bütövlüyünün pozulmazlığı məsələsini meydana çıxarır.  Azərbaycan xalqı öz müqəddəratını təyin edib respublika yaradıb. Erməni xalqı da eyni şəkildə öz respublikasını qurub.

# Ermənistan Minsk qrupunu yenidən dirçəltməyə cəhd edir

## Bu, Fransanın, Amerikanın və Rusiyadakı müəyyən qüvvələrin düşüncəsinin məhsuludur

**Ermənistan tərəfi Azərbaycanın iki ölkə arasında sülhlə bağlı irəli sürdüyü 5 baza prinsipləri təklifinə cavab verib. Rəsmi İrəvan müzakirələrə hazır olduğunu bəyan edərək, Azərbaycanla sülh sazişinin imzalanması üzrə danışıqların təşkili üçün ATƏT-in Minsk qrupunun həmsədrliyinə müraciət etdiyini açıqlayıb.**

Yəni İrəvan hökuməti rəsmi Bakının 5 şərtinə ”ATƏT-in Minsk qrupu” ilə qarşılıq verib. Ermənistan tərəfi vurğulayıb ki, proses Helsinki Yekun Aktı və BMT-nin Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktı üzrə təşkil edilməlidir.

İrəvanın məqsədi Qarabağda məskunlaşan azsaylı erməni əhalisinə öz müqəddəratını təyinetmə hüququnu verməkdir.

Ermənistan yenidən niyə Minsk qrupunun dirçəldilməsini istəyir?

**Məsələni ”Şərq”ə dəyərləndirən beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bunu Madrid prinsiplərinin müddəaları ilə əsaslandırıb:**

”Ermənistan tərəfi baza prinsiplərinə cavab verdi. Əsaslandırdı ki, xalqların öz müqəddəratını həll etməyə yönəlik çağırışlar öz əksini tapmayıb. Daha sonra vasitəçi tərəf kimi ATƏT-in Minsk qrupunun fəaliyyətinin canlandırılması məsələsini gün-

Lakin Qarabağda yaşayan ermənilər etnik azlıq olduğu üçün belə bir haqq onlara şamil edilmir. Eyni zamanda ATƏT-in Minsk qrupunun üzvləri bölgədə qarşı cəbhələrdə yer alırlar.

Bununla yanaşı, həmin ölkələr fərqli maraqlar çərçivəsində bölgəyə daxil olmaq və Azərbaycanın əldə etdiyi qələbədə müəyyən manipulyasiyalar etmək istədiklərinə görə bu məsələni yenidən gündəmə daşıdılar. Bu təkcə Ermənistan ağlı deyil. Onun arxasında duran Fransanın, Amerikanın və Rusiyadakı müəyyən qüvvələrin düşüncəsinin məhsuludur”.

**Sənan İsmayıl**

# Bakının gedişləri İrəvanı mat qoydu

## Ermənistan daha Zəngəzur dəhlizinə mane ola bilməyəcək




**”Ermənistan tərəfi Zəngəzur dəhlizinin açılmasını siyasi alver predmetinə çevirdiyinə görə, rəsmi Bakı alternativ varianta üstünlük verdi”.**

**Bu sözləri ”Şərq”ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, İrəvan Zəngəzur dəhlizinin açılmasını Qarabağda etnik ermənilər üçün ”status” məsələsi ilə paralel olaraq danışıqlar predmetinə çevirməyə çalışırdı:** ”Bu, 10 noyabr bəyannaməsinin İrəvan tərəfindən pozulması deməkdir. Ermənistan bununla Azərbaycana təzyiq etmək niyyətində idi. Lakin Azərbaycanın İranla Anlaşma memorandumu imzalaması Ermənistanın Azərbaycana qarşı əlində təzyiq vasitəsini heçə endirdi. O səbəbdən Ermənistan siyasi dalandan çıxmaq üçün Azərbaycanın sülh təklifinə Minsk qrupunun vasitəçiliyi ilə danışıqlar aparmasını şərt kimi irəli sürüb. Paşinyan ”status” məsələsini növbəti dəfə gündəmə daşımağa cəhd edib. Göründüyü kimi İrəvan Qərbin vasitəsilə Azərbaycana təzyiq etmək üçün diplomatik müstəvidə iş aparır. Amma qarşı tərəfin ”diplomatik” həmlələri müsbət nəticə verməyəcək”.

**Analitik qeyd edib ki, rəsmi Bakı Avropa ölkələri ilə siyasi-iqtisadi və enerji təhlükəsizliyi sahəsində əməkdaşlığı inkişaf etdirir:** ”Tərəflər arasında narazılıq yaradacaq proses yoxdur. Avropa müharibənin gedişində Azərbaycana təzyiq etməyib. Təhlükəsizliyi Rusiya tərəfindən təhdid edildiyi indiki dönəmdə Ermənistanın siyasətinə alət olub Bakıya təzyiq etməyəcək. Paşinyanın Fransaya səfərində bu amil başlıca yer tuturdu. ”Bulanıq suda balıq tutmaq” cəhdləri erməni rəhbərliyi tərəfindən hələ davam etdirilir. Ermənistan müharibədən sonra məhz Avropanın geoiqtisadi və geosiyasi maraqlarına xidmət edəcək Zəngəzur dəhlizinin açılmasına mane olmaqla bir növ Şərq və Qərbi birləşdirəcək nəqliyyat habının qarşısını kəsir. Avropa ilə Rusiya arasında yaşanan konfrantrasiyaya görə Çindən, Hindistandan, Mərkəzi Asiyadan gələn yüklərin qarşısı kəsilir. Bu yüklər məhz Zəngəzur dəhlizindən keçməklə Avropanın Rusiyadan kənar yolla Şərqlə birləşməsinə gətirib çıxara bilər”.

**İsmayıl Qocayev**



# Dünya həqiqətən beşdən böyükdür

**Ankara vasitəçilik missiyasında sübut edir ki, tərəfsiz və obyektivdir**

**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Ukrayna böhranını həll etmək üçün Rusiyaya səfər edib. Rusiyalı həmkarı Sergey Lavrovla görüşən və müzakirələr aparan Çavuşoğlu Ankaranın Kiyev-Moskva arasında vasitəçilik niyyətində olduğunu vurğulayıb.**

Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop deyib ki, Türkiyə yenidən Rusiya-Ukrayna danışıqlarına ev sahibliyi etməyə hazırdır. Onun sözlərinə görə, müharibənin davam etdiyi bir vaxtda xarici işlər nazirlərinin Antalyada diplomatiya masası arxasına əyləşmələri uğurdur: ”Bu, vacib başlanğıcdır. Qarşıdakı günlərdə də belə müzakirələrə ev sahibliyi etməyə hazırıq”. Şentop əlavə edib ki, Rusiyanın Ukraynaya hücumu qəbuledilməzdir: ”Hücumların dayandırılması üçün təşəbbüs göstəririk. Bu müharibənin qalibi olmayacaq. Əksinə, xalqlar itirəcək. Axan qanın, göz yaşının dayandırılması hər birimizin prioritetidir”. Rusiya XİN-in Dördüncü Avropa Departamentinin direktoru Yuri Pilipson da böhranın həllində yardıma görə Türkiyəyə minnətdarlıq edib. Onun sözlərinə görə, Rusiya rəsmi Ankaranın balanslaşdırılmış siyasətini dəyərləndirir. Xatırladaq ki, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Rusiyadan sonra Ukraynaya səfər edəcək. XİN rəhbərinin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanun xüsusi tapşırıq və təlimatı əsasında münaqişə tərəflərinə səfər etdiyi vurğulanır.

**Ankaranın Rusiya-Ukrayna müharibəsində qətiyyətlə icra etdiyi vasitəçilik missiyasını ”Şərq”ə dəyərləndirən AĞ Partiya sədri Tural Abbaslı deyib ki, Türkiyə rəhbərliyinin son illərdə həyata keçirdiyi hücum siyasəti nəticəsində, hərbi sənaye və iqtisadiyyatın yüksəlişi fonunda ölkənin regional və dünya miqyasında təsir imkanları xeyli artıb.** Partiya rəhbərinin sözlərinə görə, Türkiyə dünyaya yön verən, yeni düzənlər quran ölkələr sırasındadır: ”Prezident Rəcəb Tayyib Ərdoğanın məşhur tezisi var. O, tez-tez deyir ki, ”dünya beşdən böyükdür”. Dünya özünü altıncı güc kimi sübut edən Türkiyə ilə tanış olmaqdadır. Qərb ölkələri də Ankara ilə hesablaşmaq məcburiyyətindədir. Türkiyənin istənilən uğuru və bu istiqamətdəki nailiyyətləri eyni zamanda Azərbaycanın da uğurudur. Hər mənada, siyasi, iqtisadi və hərbi müstəvidə Ankara hökumətinin yanında dayanmalıyıq. Daxili məsələlərlə yanaşı, beynəlxalq aləmdə də öz dəstəyimizi əsirgəməməliyik. Azərbaycanın təhlükəsizliyi birbaşa Rusiyanın gücündən və qüdrətindən asılıdır. Təbii ki, Türkiyənin Rusiya-Ukrayna müharibəsində vasitəçilik etməsi və hər iki ölkənin Ankaranı etibarlı, prinsipial tərəf kimi qəbullanması Türkiyənin bu məsələdə rolunu və təsir imkanlarını artırır. Ankara ABŞ və Avropa ölkələrinin Rusiyaya qarşı sanksiyalara qoşulmaq tələbinə rədd cavabı verdiyi üçün Moskva tərəfindən etibarlı vasitəçi kimi qəbul edilir. Eyni zamanda Ukraynanın ədalətli mövqeyinin yanında duraraq, hərbi, siyasi, humanitar və mənəvi dəstək verərək də Kiyevin etimadını qazanır. Münaqişə tərəfləri Türkiyənin daim tərəfsiz və obyektiv mövqe tutduğunun fərqindədirlər”.

> “Böyük dövlətlər özünü altıncı güc kimi sübut edən Türkiyə ilə tanış olmaqdadır”

*T.Abbaslıya görə, belə konfliktlər zamanı bir çox ölkə vasitəçilik missiyasını önə çəkir.* Hətta zaman-zaman Qərb ölkələri ilə yanaşı, Rusiya özü də bəzi münaqişələrdə vasitəçiliklə çıxış edir: ”İndi söz və meydan Türkiyənindir. Sözsüz ki, bu vasitəçilik Türkiyə üçün böyük avantaj, nüfuzun daha da artması deməkdir. Həm siyasi, həm də iqtisadi imkanları artan Türkiyə dünyanın ən mühüm aktorlarından birinə çevrilib. Böyümənin də öz öhdəlikləri və riskləri var. Əgər Türkiyə dünyanın siyasi və iqtisadi sferasında sözünü demək istəyirsə, aparıcı gücə çevrilmək niyyəti güdürsə, qətiyyətli addımlardan çəkinməməlidir. Sevinməli və çalışmalıyıq ki, Türkiyənin dünya siyasətində təsir imkanları artsın. Bu gün ağır sanksiyalara məruz qalan, dünyadan təcrid olunan, sıxışdırılan Rusiya ilə əməkdaşlıq edən Türkiyə sabah Qarabağ məsələsində rəsmi Bakıya sərf edən məsələləri Moskvaya qəbul etdirə bilər”.

**İsmayıl Qocayev**

# "Ən böyük dəstəkçim atamdır"

## “Uşaqlıqdan kimya kitablarının əhatəsində böyümüşəm”



Dünyanın top universitetlərindən birində təhsil alacaq Salman Hüseynov uğurunu “Şərq”ə anlatdı

**Azərbaycanlı məktəbli dünyanın ən məşhur universitetlərinin birinə təqaüd qazanıb.**

**”Şərq” Astara rayonu, Pensər kənd Z.Ə.Əhmədzadə adına 2 nömrəli məktəb-liseyin şagirdi, olimpiada qalibi Salman Hüseynovla həmsöhbət olub.**

S.Hüseynov dünyanın top universitetlərindən biri, Amerika Birləşmiş Ştatlarının (ABŞ) Massaçusest Texnologiya Universitetində (MIT) təhsil alacaq.

S.Hüseynov 2019-2020-ci tədris ilində keçirilən Respublika Fənn Olimpiadalarında kimya fənni üzrə 2-ci yerin, 2020-2021-ci tədris ilində keçirilən Respublika fənn olimpiadalarında isə 1-ci yerin sahibi olub.

*Həmçinin 2021-ci ildə Yaponiyada təşkil edilən ICHO-Beynəlxalq Kimya Olimpiadasında (distant) 3-cü yeri əldə edərək bürünc medal qazanıb.*

*Qeyd edək ki, Salman Hüseynov hazırda Beynəlxalq olimpiada hazırlıq mərkəzində kimya fənni üzrə dərslərdə iştirak edir.*

**- Necə oldu ki, xarici universitetə üz tutdun?**

- Beynəlxalq olimpiadada medal qazandıqdan sonra belə bir şərait yarandı. Medal gətirən şagirdlər Azərbaycanda istənilən universitetə daxil ola bildiklərinə görə, arxayın şəkildə düşündüm ki, xaricə də sənəd vermək mümkündür.

**- Ailən seçimini necə qarşıladı?**

- Həmişəki kimi ailəm məni dəstəklədi. Onların özləri də xaricdəki yüksək prestijli universitetlərə sənəd verməyimin gələcəyim üçün əhəmiyyət daşıdığını anlayır.

**- Xaricdə təhsil almaq istəyən şagirdlərin çoxu sonradan oxuduğu ölkələrdə qalıb karyeralarını Vətəndən uzaqda davam etdirirlər. Bəs, sənin gələcəklə bağlı planların nədir?**

- Əvvəlcədən plan qurmağı sevmirəm. Hətta öz ixtisasımı belə dəqiqləşdirməmişəm. Lakin hər şeyə rəğmən istərdim ki, dünyada uğurlara imza atım. Azərbaycana da böyük dəstək göstərməyimi istəyirəm. Əgər şans düşərsə, oxuyub bitirəcəyim ixtisası elə Azərbaycanda çalışıb, müəyyən sahəni dəyişib, inkişaf etdirməyi sevə-sevə gerçəkləşdirərəm.

**- Hələ ixtisasını seçmədiyini vurğuladın. İxtisas seçimində dəyərləndirəcəyin hansı variantlar var?**

- Mühəndlislik ixtisaslarından birini seçəcəm. Daim kimya, fizikaya həvəsim olub, elmlə maraqlanmışam. Məncə, elmin birbaşa tətbiqi mühəndislikdən keçir. Təsir etmək, fərq yaratmaq arzusundayamsa, mühəndislik üzrə ixtisaslaşmağım daha düzgündür.

**- Maraqlıdır, elmə bu qədər həvəs göstərməyinə, bu istiqamətə yönəlməyinə nələr və kimlər köməklik göstərib?**

- Anam ibtidai sinif, atam isə kimya müəllimidir. Uşaqlıqdan kimya kitablarının əhatəsində böyümüşəm. ”Kimya dünyasında” yaşamışam, bu mənada elmə sevgim yaranıb. Ən böyük dəstəkçim atamdır. Olimpiada yolunu da davam etdirdim. Bu istiqamətdən irəliləyib uğurlu olacağımı fikirləşirdim.

**- Bəzən gənclərin valideyni ölkədən çıxmağa icazə vermir...**

- Belə halın mövcudluğuna təəssüf edirəm. Çünki valideyn övladına sevgi bəsləyir. Bəlkə də ondan uzaq qalmasını istəmirlər, yaxud xaricdə təhlükə altında olacaqlarını düşünürlər. Hər bir insanın həyatında sərbəstlik, özünü idarəetmə bacarığı formalaşmalıdır. Çünki valideyn həmişə yanımızda olmayacaq.

**- Xaricdə təhsil almaq istəyən yoldaşlarına nə tövsiyə edərdin?**

- Düzü, xaricdə təhsil almaq əvvəldən məqsədim deyildi. Olimpiadadan medal gətirdikdən sonra bu barədə düşünməyə başladım. Həmyaşıdlarıma məsləhət verərdim ki, məktəb illəri ərzində sevdikləri sahəyə maraq göstərsinlər. Təhsil Nazirliyi Azərbaycanda şagirdlərin özünü ifadə etməsi üçün imkan yaradıb. Şanslardan yararlanmaq lazımdır. Sevərək yönəldiyim sahə olduğu üçün mənə görə ikiqat qələbədir.

**- Qürbət ölkədə yaşamaq çətin olmayacaq ki?**

- Fərqli mədəniyyətə, insanlara uyğunlaşmaq çətin prosesdir. Lakin bunu reallaşdırmaq istəyirəm. Çətin olmaqla yanaşı maraqlıdır. Həm dünyagörüşüm artır, həm də çevrəm, əlaqələrim genişlənir.

**- Massaçusets Texnologiya İnstitutunda dərslərin nə vaxt başlayır?**

- Növbəti tədris ilindən başlayacaq.  Ola bilsin ki, ilkin dərslər onlayn şəkildə keçirilsin.

**Aygün Tahir**

# ABŞ Azərbaycanın Rusiya ilə yaxınlığına qısqanır

> “Vaşinqton çalışacaq ki, rəsmi Bakı ilə Kreml arasında olan münasibətləri soyuqlaşdırsın”

**Martın 15-də Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.**

Söhbət zamanı Cənubi Qafqaz regionunda postmünaqişə dövrünə aid məsələlər, Ermənistanla Azərbaycan arasında normallaşma prosesi barədə fikir mübadiləsi aparılıb, eyni zamanda, regional təhlükəsizlik məsələləri də müzakirə olunub. E.Blinken Ukraynaya humanitar yardım etdiyinə görə Azərbaycana təşəkkür edib.



**Azərbaycan Sosial Demokrat Partiyasının sədri, keçmiş  millət vəkili Araz Əlizadə  bu barədə ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycan İkinci Qarabağ savaşında qələbə qazandıqdan sonra regionda güc mərkəzlərindən birinə çevrilib:**

”Rusiya ilə ”Müttəfiqlik haqqında Bəyannamə” imzalaması isə Azərbaycanı daha da gücləndirib. Bu, ABŞ-ı narahat edir. Vaşinqton çalışacaq ki, rəsmi Bakı ilə Kreml arasında olan münasibətləri soyuqlaşdırsın. Buna nail ola bilməyəcək, çünki Azərbaycan özünə böyük qardaş yox, böyük dostlar axtarır”.

A.Əlizadə vurğulayıb ki, Azərbaycan ABŞ-ın necə dost olmasını Əfqanıstanda, eləcə də Ukraynadakı hadisələrdən bilir:

”Onun öz maraqları var. ABŞ dövlət katibinin ölkə başçımıza zəngi də Ağ Evin maraqlarına hesablanıb”.

**Günəş Mərd**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Uşaq və gənclərin fiziki və mənəvi inkişafı**

# Böyüyəndə də bizimdir!

## Hamı çalışmalıdır ki, dövlətə layiqli vətəndaşlar yetişsin



**Novruz bayramı ərəfəsində Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri və Aparat nümayəndələri, Xətai Rayon İcra Hakimiyyətinin nümayəndələri rayon ərazisindəki 3 saylı uşaq evinin sakinləri ilə görüşüb. 3 saylı uşaq evinin direktoru Məhbubə Hüseynova görüşdə dövlətin uşaqlara diqqət və qayğısından geniş bəhs edib.**

Bildirib ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev hər zaman uşaqlara böyük qayğı ilə yanaşıb, onların sağlam böyümələri üçün zəruri addımlar atıb. Ümumiyyətlə, Azərbaycanda uşaq hüquqlarının qorunması prioritet məsələlər sırasındadır. 1 iyun tarixinin Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunması uşaqlara beynəlxalq səviyyədə diqqətin bariz nümunəsidir. Ulu öndər Heydər Əliyev "Uşaqlar bizim gələcəyimizdir" söyləyərək cəmiyyətin hər bir üzvünə onlara qayğı ilə yanaşmağa çağırışlar edirdi: "Nəzərə alsaq ki, hər bir uşağın sağlam böyüməsi, mənəvi sıxıntılardan uzaq olması üçün ailəyə ehtiyacı var. Bu halda valideyn himayəsindən məhrum olmuş uşaqların hansı problemlərlə üzləşdiklərini təsəvvür etmək çətin deyil. Baxmayaraq ki, dövlət bu uşaqların qayğıdan kənarda qalmamaları üçün zəruri olan bütün addımları atır, uşaq evlərinin fəaliyyəti və onlarda uşaqların gələcək inkişafı üçün bütün imkanların yaradılması, ən əsası onların valideyn nəvazişindən uzaq olduqlarını hiss etdirməmək üçün yüksək qayğının təmin edilməsi həyata keçirilir, yenə də bu işdə ailənin önəmi danılmazdır. Ailə kiçik dövlətdir. Bu kiçik dövlət Azərbaycanın gələcəyi üçün hərtərəfli vətəndaş yetişdirir, onun gələcəyinə təminat verir. Heydər Əliyev siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən dövlət başçısı İlham Əliyevin uşaqlara diqqət və qayğısının bariz nümunəsi 2009-cu ili ölkəmizdə "Uşaq İli" elan etməsidir. Bununla yanaşı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrdə də uşaqlara diqqət və qayğı əsas yer tutur." Çıxış edən YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə dövlətimizin uşaq siyasətindən geniş bəhs edərək bu istiqamətdə atılan addımlardan, imzalanan Fərman və sərəncamlardan, təsdiqlənən Dövlət proqramlarından, eyni zamanda, hər bir sahənin inkişafına, cəmiyyətin idarə olunmasına xidmət edən qanunlardan bəhs edərək bildirib ki, uşaqların sağlam ruhda böyüməsi onların necə tərbiyə olunmasından asılıdır. Dövlətin valideyn qayğısından məhrum olan uşaqları öz himayəsinə götürərək onların problemlərinin həllini diqqət mərkəzində saxlaması və hərtərəfli şəkildə yetişmələri üçün zəruri tədbirlər görməsi təqdirəlayiq haldır. YAP Xətai rayon təşkilatının sədri bildirib ki, Novruz bayramında daha çox sevinən uşaqlar olur. Zəngin tarixi və rəngarəng folkloru özündə ehtiva edən Novruz bayramının adətləri uşaqlar üçün xüsusi maraq kəsb edir. Xətai Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Pənah İmanov çıxışında milli birlik, həmrəylik, bolluq, bərəkət bayramı olan Novruzun insanlarda yaratdığı xoş ovqatdan, yüksək əhval-ruhiyyədən bəhs edib. Qeyd edib ki, Novruz gəlişi ilə ölkəmizə əmin-amanlıq, firavanlıq, səmimiyyət gətirir. Bu gün Novruz sevincimizə sevinc qatan digər mühüm amil 44 günlük Vətən müharibəsində şanlı Qələbəmizdir. Tarixi Zəfərimizin yaratdığı sevinc keçirilən tədbirlərin miqyasında da özünü aydın şəkildə ifadə edir. Birliyimizi, həmrəyliyimizi özündə təcəssüm etdirən Novruz bayramında uşaqlarla, ahıllarla bir arada olmaq, onların qayğıları ilə maraqlanmaq, sevincimizi bir yerdə paylaşmaq hər birimizi qürurlandırır. Çünki milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə uyğun olaraq uşaqlara, böyüklərə diqqət və qayğı hər birimizin vətəndaşlıq borcumuzdur.

**Təhsil eksperti Kamran Əsədov**

"Uşaqların sağlam ruhda böyüməsi onların necə tərbiyə olunmasından çox asılıdır"

**"Şərq"ə açıqlamasında qeyd etdi ki, istər Novruz bayramı günlərində, istərsə də digər bayramlarda, əlamətdar günlərdə uşaq müəssisələrinə ziyarətlərin təşkil olunması böyük əhəmiyyət kəsb edir:**

- Uşaqlarla daim ünsiyyətdə olmaq, ələqələrin qırılmamasına çalışmaq lazımdır. Xüsusilə söhbət dövlət müəssisələrində böyüyən uşaqlardan gedirsə. Uşaqların fiziki inkişafı ilə yanaşı mənəvi inkişafı da önəmlidir. Bu da asılıdır, müəssisə rəhbərliyindən, orada çalışan müəllimlərdən, tərbiyəçilərdən. Hətta təsərrüfat işləri ilə məşğul olan əməkdaşlardan da. Müəssisənin bütün əməkdaşları bir həqiqəti unutmamalı, daim yaddaşda saxlamalıdırlar ki, bu uşaqlar arasında bir və ya hər iki valideynini itirmiş, valideyn himayəsindən məhrum, valideynləri, yaxın qohumları tərəfindən baxımsız qaldıqları üçün, doğmalarının sahib çıxmadığı uşaqlar var. Və bu uşaqlara xüsusi diqqət və qayğı göstərilməlidir. Təbii ki, dövlət üzərinə düşən vəzifəni yerinə yetirir. Bununla kifayətlənmək olmaz. Müəssisə əməkdaşları da vəzifələrini bilməli, hətta dəfələrlə artıq dərəcədə çalışmalıdırlar ki, dövlətimizə layiqli vətəndaşlar yetişsin. Novruz bayramı ərəfəsində uşaq müəssisələrinə səfərlər həm də balalara milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi aşılamaq baxımından önəmlidir. Bu uşaqlar sabahın yetişkin vətəndaşı, ata-ana - valideyn olacaqlar. Novruzun əsas xüsusiyyətlərindən biri böyükləri ziyarət etmək, kiçikləri sevindirməkdir. Bu gün uşaqlar böyüklərin onları sevindirdiyinə şahid olursa, sabah onlar da eyni addımı atacaq, yaddaşlarında qalmış gözəl xatirənin işığı ilə hərəkət edəcəklər. Ənənələr belə qorunur, dəyərlərə belə sahib çıxılır.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



Pandemiya dövründə də insanların izdivaclarının pozulmasının həm maddi, həm də mənəvi səbəbləri var. İnsan bioloji olmaqla yanaşı sosial canlıdır. Uzun müddət işdən, cəmiyyətdən təcrid olunmaq adamları məişət divarları arasında bir-birinə adiləşdirir

# Boşanmalar...

## İnsanların aldıqları məvacib gülüş doğurur

**Son zamanlar izdivacların pozulması ilə bağlı rəqəmlər artmaqdadır. Cəmiyyət situasiyaya bağlı olaraq boşanan cütlüklərə bəzən haqq qazandırır. Bəzi hallarda isə qınayırlar. Bunu həm də müasir dövrün təsiri ilə ələqələndirirlər. Evliliyin uğursuz yekunlaşmasının günahkarı hər zaman yalnız iki gənc olmur. Ailələrin də rolu danılmazdır.**

Məcburi evliliyə sövq edilən insanların olduğunu yəqin ki, hər birimiz eşitmişik, bilirik. Bunlara səbəb cahillikdir. Doğrudur, Avropa ölkələri ilə inteqrasiyamız gündən-günə yeni şəkil alır. Lakin müəyyən bir təbəqə var ki, təhsildən uzaqdır və bunun acı nəticələrinə zamanla şahid oluruq. Çünki boşanmaların kökündə təhsilə dayanan amil də mövcuddur. Elmli, dünyagörüşlü şəxslər qurduğu ailənin dəyərini, müqəddəsliyini dərk edir. Bundan başqa, ölkəmizdə koronavirusa yoluxma faktı aşkarlandıqdan sonra karantinin tətbiq edilməsi də izdivaclara mənfi təsirini göstərib. "Evdə qal" şüarına əməl edərək mənzilindən çıxmayan ailə üzvlərinin psixologiyasının sarsılması ilə yanaşı sosial problemləri də üzə çıxıb. Təəssüf ki, həmin müddət ərzində müəssisələrdə işçilərin fəaliyyətində durğunluq yaranıb. Sosial mühitdən uzaq qalmaq, eyni zamanda maddi vəziyyətin çətinləşməsi ailədaxili münaqişələrə yol açıb. Mübahisələrin sonlanması üçün çarəni də boşanmalarda axtarırlar. Məsələn, elə cari ilin yanvar ayında 5475 nikah qeydə alınıb, 1248 boşanma halları olub. Bu, kifayət qədər ciddi rəqəmdir. Dövlət Statistika Komitəsi bildirib ki, əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,4, boşanmaların sayı isə 1,5 olub.

Qeyd edək ki, ötən ilin yanvar-may ayları ərzində qeydiyyat şöbələri tərəfindən 19 141 nikaha daxilolma və 6 745 boşanma halları qeydə alınıb. Əhalinin hər 1 000 nəfərinə 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 3,7-dən 4,6-ya, boşanmaların sayı isə 1,4-dən 1,6-ya qədər artıb.

**Sosioloq Sahib Altay "Şərq"ə açıqlamasında bildirib ki, boşanma hallarının birmənalı olaraq pandemiyaya bağlamaq doğru deyil:**

"Bu hallarla bağlı xəbərlər illərdir ki, mətbuatda yer alır. Ailə o qədər geniş mövzudur ki, onun qurulması və ya dağılması ilə bağlı səbəblər şaxələnir. Boşanmaların həm say, həm də tərkib etibarilə artan sıra ilə davam etməsi əksəriyyətin düşüncəsində sensasiya doğurur. Azərbaycan ənənəvi, mental təfəkkürə sahib toplumdur. Bizim mentalitetimizdə ailə müqəddəs dəyərdir. Əvvəllər insanlara boşanmanın faciə olduğu təlqin edilib. Boşanan kişiyə də, qadına da "yuxarıdan aşağı" baxılıb. Məqsəd isə məlumdur, mövcud ailə modelini qorumaq. Ancaq belə situasiyalarda qadınlar daha çox əziyyət çəkiblər. Çünki kültürümüzün əsas tərkib hissəsinin bir elementi də bioloji bakirəlik məsələsidir. Boşanan qadının bir daha ailə qurmaq şansı olmur. Təbii ki, istisnalar olub, indi də mövcuddur. Məhz bu təfəkkürdən dolayı da el arasında belə bir deyim mövcud idi. Ata evindən gəlinlikdə ər evinə ayaq açan qıza valideynlər deyirdilər ki: "Ata evindən gəlinlikdə çıxırsan, ər evindən yalnız kəfənində çıxa bilərsən". Tərəqqi getdikcə modellər də dəyişir. İnkişaf birtərəfli proses deyil. Özü ilə birlikdə gətirdiyi rahatlıq qədər, həm də yeni şərtlər və çətinlikləri var. Məsələn, əvvəllər patriarxat toplumlarda qadınlar o qədər də informasiya sahibi deyildilər. Artıq dünyada gender balansı deyilən bir aktual anlayış və yeni tendensiya var. Bu, yeni dövrün zərurətidir. Bunu mövcud iqtisadi quruluş və texnoloji inkişaf formalaşdırır. İqtisadi quruluşla cinslərarası münasibət düz mütənasibdir. Yeni dövrdə yeni düşüncənin işığında bəzən köhnəlmiş düşüncə maneələrə səbəb olur. Qarşılıqlı ələqələr düzgün qurulmur. Digər tərəfdən məcburi evliliklər, gənc oğlanların, yaxud qızların ailə qurmağa, mənəvi-psixoloji hazır olmayan yeniyetmələrin məcburi evliliyə məcbur edilməsi zaman-zaman uğursuz izdivacları, ailə münaqişələrini ortaya çıxarır".

"Gəncliyin rahat yaşaması üçün bir düzən, əmək sistemi mövcud deyil"

**S.Altay əlavə edib ki, boşanmaların başqa səbəbi də dəyər məsələsidir:**

"Yeni dövrün insanı əvvəlki çağla müqayisədə dəyərlərə fərqli yanaşır. Ailə artıq məcburi maddi və mənəvi akt olmaqdan çıxıb. İnsanlar keçmişdə çətin yaşayışın fonunda hər şeyə dözüb, ailələrini qoruyublar. Bu günün insanı o dözümlülüyə, o səbrə malik deyil. Çünki ortada hüquq anlayışı var. İnsanlar bir-birinin hüququna hörmət etməlidirlər. Müasir dövrdə informasiya sərhədsizliyi insanlara elm yox, xaotik biliklər ötürür. Bunu isə yalnız keyfiyyətli təhsil qarşılaya bilər. Boşanmaların sayını azaltmaq üçün yeni dəyərlər sistemi inşa etmək lazımdır. Azərbaycan toplumu məişət mövzularında qərarsız qalıb. Bir qrup Avropa mədəniyyətini təqlid edir, başqa bir qrup mentaliteti mühafizə edir. Digər bir toplum isə dini yaşam tərzinə üstünlük verir. Hər toplumun öz psixologiyası və sosial aktları olduğu üçün parçalanmış qruplar heç bir münasibət idealında özünü tapa bilmir. Ancaq təqliddə məşğul olurlar. Sonda isə bədbəxtliklə nəticələnir. Düşünürəm ki, bu halların aradan qalxması və ya sayının azaldılması üçün yeni dünya düşüncəsinə uyğun, məxsusi sistem təsis etməliyik. Başqa bir səbəb sırf əmək və gəlirlə bağlıdır. İnsanlar izdivac qurub, normal ailə dolandıra bilmirlər".

Müsahibimiz vurğulayıb ki, ölkədə gəncliyin rahat yaşaması üçün bir düzən, əmək sistemi mövcud deyil: "Hazırda zamanənin şərtləri, tələbatları ilə müqayisədə istər dövlət, istərsə də özəl sektorda təyin olunan məvaciblər gülüş doğurucudur. Bu, hələ işləyənlər üçün belədir. Bundan əlavə böyük bir işsiz kütlə var ki, onlar ana, ata, nənə pensiyası hesabına ailə saxlayır. İşsiz adam həm cəmiyyət, həm də ailəsi qarşısında özünü lazımsız, yararsız hesab edir. Bu düşüncə zamanla psixoza çevrilib, özünə yönəlir. Bəzən də kiçik problemlər böyük ailə münaqişələrinə çevrilir. Pandemiya dövründə də insanların izdivaclarının pozulmasının həm maddi, həm də mənəvi səbəbləri var. İnsan bioloji olmaqla yanaşı sosial canlıdır. Uzun müddət işdən, cəmiyyətdən təcrid olunmaq adamları məişət divarları arasında bir-birinə adiləşdirir. Bu da şəxslərin münasibətlərin soyumasına gətirib çıxarır. Üstəlik, bunun üzərinə bir də işsizlik, aşağı səviyyəli maaş, ailənin tələbatlarının ödənilməməsi, qarşılıqlı mübahisələrin yaranmasına təkan verib. Beləliklə, adi haldakı boşanmaların sayı həmin vaxtda ikiqat çoxalıb".

**Sosioloq diqqətə çatdırıb ki, ölkədə sosial institutlar bərpa edilməli, təhsillə insanlara fərdiyyətçiliyin, ailənin mahiyyəti aşılanmalıdır:**

"Ölkədəki iş mühiti şəffaflaşdırılmalı və insanlar normal iş və əmək haqqı ilə təmin edilməlidir. Qloballaşan dünyanın mədəniyyət savaşında isə özünəməxsus toplumsal dəyərlər mühümdür".

**Sücayət Mehti**



# Narkotik aşkarlanıb

## İrandan Ermənistana gedən yük avtomobili Qubadlıda saxlanılıb

**Azərbaycandan keçməklə İrandan Ermənistana gedən yük avtomobili Qubadlıda saxlanılıb, narkotik aşkarlanıb.**

Dövlət Gömrük Komitəsindən "Şərq"ə verilən məlumata görə, Cənub Ərazi Baş Gömrük İdarəsinin "Qubadlı" gömrük postunda Azərbaycan Respublikası ərazisindən tranzit keçməklə İran İslam Respublikasından Ermənistan Respublikasına yük aparan İran İslam Respublikası vətəndaşının idarə etdiyi "Mercedes Benz Axor" markalı yük nəqliyyat vasitəsi gömrük nəzarəti zamanı saxlanılıb və sürücüdən avtomobildə gömrük nəzarətindən gizlədilən, gömrük nəzarətinə mütləq bəyan edilməli olan hər hansı predmetlərin, o cümlədən narkotik və psixotrop maddələrin olub-olmaması soruşulub.

O, isə öz növbəsində idarə etdiyi avtomobildə mütləq bəyan edilməli və gömrük nəzarətindən gizlədilmiş heç bir predmetin olmadığını bildirib.

Bundan sonra avtomobil əsaslı yoxlanılıb və yük nəqliyyat vasitəsinin kabinində gizlədilən 4,017 qram narkotik vasitə - həşiş qətranı, 8 ədəd üzərində "ddp/M20" nişanəsi olan metadon həbləri, üzərində "Alprazolam 1mg" yazısı olan konvalyut kəsiyində 2 ədəd həb və 30,132 qram narkotik vasitə - tiryək aşkar edilib.

*Faktla bağlı araşdırma aparılır.*

*Xatırladaq ki, metadon "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr"in II Siyahısına daxildir və 8 ədəd həbdə metadonun təsir maddəsinin ümumi miqdarı 0,16 qram təşkil edir.*

*Alprazolam isə "Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr"in III Siyahısına daxildir və 2 ədəd həbdə alprazolamın təsir maddəsinin ümumi miqdarı 0,002 qram təşkil edir.*

# Fenomen şəxsiyyət...

## Azərbaycanda heç vaxt ikinci dəfə Rüstəm İbrahimbəyov yetişməyəcək

**"Nizami" Kino Mərkəzində müasir Azərbaycan ədəbiyyatının və kino sənətinin görkəmli nümayəndəsi, tanınmış nasir, dramaturq, senarist və rejissor, Xalq yazıçısı Rüstəm İbrahimbəyovla vida mərasimi keçirilib. Mərasimdə tanınmış elm və mədəniyyət xadimləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Mərhum birinci Fəxri Xiyabanda torpağa tapşırılıb.

Görkəmli alim haqqında "Şərq"ə danışan Azərbaycan Jurnalistlər Birliyinin sədri, "Ayna"-"Zerkalo" qəzetlərinin yaradıcısı və baş redaktoru Elçin Şıxlı bildirib ki, Rüstəm İbrahimbəyov böyük Azərbaycan sənətkarlarından biri idi:

"O, gözəl dramaturq, kino senaristi və yazıçı idi. Rüstəm İbrahimbəyov prinsipial bir insan idi. Zənnimcə, o həm də gözəl vətəndaş idi. Bir şeyi deyə bilərəm ki, Rüstəm İbrahimbəyov Marçello Mastroyanni kimi dünya kinematoqrafiyasının nəhənglərindən biri olan adamla səhər yeməyi etmiş bir insan olub. Mən Azərbaycanda hələ Mastroyanni ilə yemək yeyən adam tanımıram".



**E.Şıxlı qeyd edib ki, R.İbrahimbəyov öz vəsaiti hesabına Azərbaycan Kinematoqrafçılar İttifaqını on illərdir saxlayıb:**

"O, ölkədə böyük kino festivalları keçirib. Rüstəm bəy daha böyük kino akademiyası qurmaq istəyirdi. Amma bundan öncəki Azərbaycan hakimiyyətində olan müəyyən adamlar Rüstəm İbrahimbəyovla ali hakimiyyət nümayəndələrinin arasını vurdular. Onu az qala düşmən elan etdilər.

Ümumiyyətlə, bütün dünya, qardaş ölkələrdən Qazaxıstan belə Rüstəm İbrahimbəyovdan istifadə etdi. Amma Azərbaycan kino sahəsində ondan istifadə etmək əvəzinə ona yalnız maneə oldu. Çox təəssüf ki, biz insanlara dünyadan köçəndən sonra qiymət veririk. R.İbrahimbəyov Azərbaycanı ən yüksək səviyyələrdə təmsil edə biləcək sənətkar idi. Təəssüf ki, o da getdi...".

**Tanınmış jurnalist, media eksperti, professor Qulu Məhərrəmli hesab edir ki, Rüstəm İbrahimbəyov Azərbaycan üçün böyük itkidir:**

"O, Azərbaycan mədəniyyətinin, kino sənətinin, teatrının, ədəbiyyatının çox parlaq və görkəmli nümayəndəsi idi. Məşğul olduğu bütün sahələrdə çox böyük uğurlara imza atıb. O, dünya səviyyəsində tanınan dramaturq, senarist və kino xadimidir. Ona görə hesab edirəm ki, Rüstəm İbrahimbəyovun itkisi Azərbaycan mədəniyyəti, ümumiyyətlə, Azərbaycan mənəviyyatı və yaradıcı mühiti üçün çox böyük itkidir. Çünki o, sözün həqiqi mənasında Azərbaycanın kulturoloji fenomeni idi".

**Professorun fikrincə, Rüstəm İbrahimbəyova qarşı çox böyük ədalətsizliklər olub:**

"Onun son illərdəki fəaliyyəti, xüsusən dünya səviyyəsində gördüyü işlər çox olub. Azərbaycanda "Şərq-Qərb" kino festivalının təşkili ilə bağlı gördüyü işlər, Azərbaycan kino sənətinə verdiyi xidmət, teatrlarda oynanılan pyesləri, Türkiyə, Rusiya, Almaniya və İtaliyada tamaşaya qoyulan əsərləri Rüstəm İbrahimbəyovun miqyasını göstərir. Ona görə hesab edirəm ki, təəssüf ki, son illərdə ictimai fəaliyyəti ilə bağlı ona qarşı həddindən artıq ədalətsizliklər oldu.

Yalnız öz şəxsi mənafeyini güdən, burnundan o tərəfini görə bilməyən məmurlar Rüstəm İbrahimbəyovun əleyhinə kampaniyalar apardılar. Təəssüf ki, bu kampaniyada onun bir çox sənət dostları, yetirdiyi insanlar da mənfi rol oynadılar. Bütün hallarda R.İbrahimbəyov varlığı və sənəti ilə sübut etedi ki, o, hansı miqyasda dayanır".

*Qulu Məhərrəmli sonda vurğulayıb ki, böyük xadimin vəfatına çox üzülür və təəssüf edir ki, Azərbaycanda heç vaxt ikinci dəfə Rüstəm İbrahimbəyov yetişməyəcək.*

**Allah rəhmət etsin!**

**Çimnaz**




## "Nar" 15 illik yubileyini abunəçiləri ilə birgə qeyd edir!

**Artıq 15 ildir ki, Azərbaycanın ən gənc mobil operatoru "Nar" abunəçilərinə üstün xidmətlər təqdim edir.**

Bu illər ərzində "Nar" müştəri yönümlü siyasət yürüdərək abunəçilərin istək və tələblərinə uyğun bir çox unikal məhsul hazırlamış, ölkə boyunca yüksəkkeyfiyyətli 4G şəbəkəsini istifadəyə vermiş, üstün müştəri xidmətləri təqdim etmiş, eləcə də mühüm sosial əhəmiyyətli layihələrin həyata keçirlməsində fəal iştirak etmişdir. Müştəri Loyallığına görə rabitə bazarının lideri olan mobil operator, yubiley mesajının mərkəzində də məhz "Nar" abunəçisinə yer verib. 15 illiyi münasibətilə "Nar" "Hekayəmizin qəhrəmanı sənsən" devizi ilə TV kanallarda təbrik videoçarxı yayımlayır və eləcə də "Nar"ı seçən abunəçiləri üçün dəyərli hədiyyələrlə dolu yarışlara start verir.

Mobil operator daha rahat ünsiyyət üçün "Nar"ı seçən bütün abunəçilərinə təşəkkür edir və bayram hədiyyələrini qazanmaq üçün "Nar"ın rəsmi sosial media səhifələrini(Facebook", "İnstagram" və "Twitter") izləyərək yarışlarda fəal iştirak etməyə çağırır.

**Elan**

Allahverdiyeva Jalə Şahin qızı 2010 -cu ildə Akstafa rayon peşə məktəbinə qəbul olunub. 2011-ci ildə həmin məktəbin əməliyyatçı mühasib AN-007692 diplomunu alıb.

# Kənd məktəblərində xarici dil müəllimləri çatışmır

## Kamran Əsədov: "10 saatlıq dərsə görə kəndə gedən müəllim 260-340 manata yaxın maaş alır"



### "Bu isə çox vaxt müəllimə sərf etmir"

**Milli Məclisin iclasında parlamentin İnsan hüquqları komitəsinin sədri, Vəhdət Partiyasının rəhbəri Tahir Kərimli təklif edib ki, əməkhaqqı artımı 1000 manatdan çox alanlara deyil, aşağı məvacib alanlara şamil edilsin:**

"Onların maaşı daha çox artırılmalıdır". Millət vəkili həmçinin kəndlərdə həkim, xarici dil müəllimi çatışmadığını da diqqətə çatdırıb.

Həqiqətən də kəndlərdə həkim, müəllim çatışmazlığı ilə bağlı problemlər var. Həmin peşə sahibləri vakant yerlərdə rayonları seçmək istəmirlər. Bu da təbii olaraq mənfi haldır. Oradakı insanlara tibbi kömək əlçatan olmur, şagirdlər də təhsildən geri qalır. Bilirik ki, gerilik, cəhalət daha çox kəndlərdə olur. Cahilliyin də qarşısını almaq üçün təhsil almaq mühüm şərtlərdən biridir. Təəssüf ki, şagirdlərin savadlanmasının əsas vasitəçisi olan müəllimlər rayon kəndlərində kifayət qədər deyil.

**Təhsil üzrə ekspert Kamran Əsədov "Şərq"ə açıqlamasında bildirib ki, ucqar kənd və qəsəbələrə gedən müəllimlərə mükafat, yaxud həvəsləndirici imtiyazların verilməsi işləmək üçün kəndi seçənlərin sayını artırıb, amma hələ də əksər bölgədə müəllim çatışmazlığı var:**

"Araşdırmalara görə, bəzi məktəblərdə ixtisaslı müəllim öz fənni ilə yanaşı, daha bir neçəsini də tədris edir. Nəticədə isə təhsilin keyfiyyəti aşağı düşür. Şagirdlər və valideynlərin narazılığı yaranır. İstər Bakıda, istərsə də regionlarda rus bölməsi üzrə ciddi şəkildə kadr çatışmazlığı mövcuddur. Hətta Lerik, Yardımlı, Quba, Qusar, Xaçmaz və Şamaxının kənd məktəblərində xarici dil fənni üzrə müəllimlər illərdir ki, yoxdur.

Qüvvədə olan qanunvericilik aktlarına görə, rayon mərkəzindən 20 kilometrə qədər məsafədə yerləşən kənddə işləyənlərə əlavə həvəsləndirici mükafat olaraq 60 manat, 20 kilometrdən uzaqda yerləşən məktəblərdə işləyənlərə vergi və digər ödəmələr çıxdıqdan sonra 141 manat ödənilir. Beləliklə, 10 saatlıq dərsə görə kəndə gedən müəllim 260-340 manata yaxın maaş alır. Bu isə çox vaxt müəllimə sərf etmir.

Amma hələ də kəndlərə Azərbaycan dili, ədəbiyyat, yaxud tarixdən fərqli olaraq riyaziyyat, kimya, fizika və digər texniki fənləri üzrə müəllim çatışmır. Bunun isə bir neçə səbəbləri var.

Kənd məktəblərində dərs saatı 8-dir. Üstəlik, ucqar kəndlərdə işləməyə gedənlər əsasən gənclərdir. Onların iş stajı azdır. Müəllimin maaşı isə saat və staja uyğun hesablanır. Hesab edirəm ki, regionlarda müəllim çatışmazlığını aradan qaldırmaq, yüksək bal toplayan gənc müəllimləri regionlara cəlb etmək üçün onlar kommunal xərclərdən azad edilməlidir. Həmçinin cəbhəyanı ərazilərdə işləməyə gedənlərə isə əmək haqqını iki qat vermək lazımdır".

**Sücayət Mehti**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

-MÜHASİBAT (2 AY)

-Mobil telefonların təmiri (3 ay)

-KOMPYUTER (1-3 AY)

-KOSMETOLOGİYA və VİZAj (3 AY)

-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)

-Dizayn (3-6ay)

-Masaj (3 ay)

-Biçmə - Tikiş (3 ay)

-Məktəb Psixologiyası (12 ay)

Tel: (012) 489-08-84

Mob: (070) 241-28-67

www.az-baku.com


## Damlanın geyimi mübahisə yaratdı

### Müğənni dərhal şərhləri bağlayıb



**Müğənni Damla sinə dekolteli geyimi ilə izləyicilərin diqqətini çəkib.**

"Şərq" xəbər verir ki, çox vaxt qapalı geyimlərə üstünlük verən müğənninin bu tərz geyimi sosial şəbəkə istifaçilərinin marağına səbəb olub.

Sənətçinin paylaşımının şərhlər qismində müzakirələr aparılıb.

Damlanı belə tərzdə görməyə adət etməyənlərin mübahisəsinə görə sənətçi şərhləri bağlayıb.

**Aygün**

## Sevil-Sevinc bacıları Dubayda dincəlir

### Müğənnilər zürafələrlə səhər yeməyinə də çıxıblar



**Müğənnilər Sevil və Sevinc Səfərova bacıları tətilə erkən yollanıb.**

"Şərq"in məlumatına görə, əkizlər istirahət üçün Birləşmiş Ərəb Əmirliklərini (BƏƏ) seçiblər. Dubayda dincələn müğənnilər zürafələrlə səhər yeməyinə gedib.

İfaçılar görüntüləri sosial şəbəkədə paylaşıblar.

Səfərovalar səfərlərinin məqsədinin yalnız istirahət olmadığını qeyd ediblər:

"Dubaya yalnız günəşlənmək üçün getməmişdik. İlk getmək istədiyimiz isə BƏƏ-nin paytaxtı Abu-Dabi idi. Çünki dünyanın 6 ən böyük məscidlərindən biri orada yerləşir".

**Aygün**

# Poliqlotların sirri çözüldü

## Bir neçə dildə danışmağın sadə yolu varmış

*(Əvvəli səh.8)*




**Zaman keçdikcə Mustafa öz fərdi üsullarını da tətbiq etməyə başlayıb. Mustafanın üsulu belədir: başlanğıcda 1000-1500 sözü sıralayır, bu sözlərdən cümlələr qurur və dialoqlar hazırlayır. Sözlərin və cümlələrin səsləndirilməsini də əlinin altında saxlayır.**

Dialoqlar bu dildə danışanlar tərəfindən səsləndirilir. Bu üsuldan istifadə etməklə 3-6 müddətində istəyinə nail olur. Mustafa deyir ki, hər hansı bir dildə danışmaq üçün o dilin nəzəriyyəsini öyrənməyə ehtiyac yoxdur: "Dil öyrənmək üçün ənənəvi metod qrammatika hesab edilir. Lakin beynimizin dil öyrənmə və danışmaq şəkli bu deyil. Beynimiz dili riyaziyyat kimi öyrənə bilməz. Beyin hər hansı bir dili qəliblər üzərində öyrənir. Mən bu üsuldan istifadə edirəm. Özüm üçün bu üsulu seçmişəm. Poliqlotların ən böyük sirri də fərdi çalışmaqlarıdır". Mustafanın çətinliklə öyrəndiyi dil Koreya dili olub. Koreya dilindən başqa bütün digər dilləri Türkiyədən kənara çıxmayaraq öyrənib. Koreya dili öyrənmək üçünsə Koreyaya səfər etməli olub. Mustafa əcnəbi dil öyrənmək istəyənlərə o dildə danışan ölkələrə səfər etməyi də məsləhət görür. Başqa bir poliqlot – Arda Erol isə əcnəbi dilləri öyrənmək istəyənlərə həmin dildə mahnılar dinləməyi tövsiyə edir: "beynimizin əcnəbi dil qavrama ilə bağlı bəlli nöqtələri var. Dil vərdişlərinə yiyələnməklə bu nöqtələrin əhatəsini genişləndirmək mümkündür. Məsələn, öyrənmək istədiyimiz dildə mahnılar dinləmək, daha çox danışmağa çalışmaq, danışarkən hansısa sözü düzgün tələffüz etməməkdən utanmamaq, çəkinməmək əsas şərtdir. Linqvistika elminin araşdırıcısı İbrahim Onur Akkurt isə bildirib ki, əcnəbi dilə yiyələnmək hansısa məqsədə doğru yoldur. Hər kəsin fərqli məqsədləri ola bilər. Amma məqsədsiz dil bilgisinə sahib olmaq mümkün deyil: "Poliqlotlardan soruşduqda, onlar "biz dahi deyilik, sadəcə, doğru üsullardan istifadə edirik" cavabını verirlər. Bu o deməkdir ki, düzgün metodlardan istifadə etməklə istənilən şəxs əcnəbi dillərə yiyələnə bilər. Sadə üsullar bunlardır:

Öyrənmək istədiyiniz dilin çox danışıldığı məkanlara gedin. Bununla o dildə danışmaq məcburiyyəti yaranacaq və pis-yaxşı danışmağa məcbur olacaqsınız. Beləcə, dil inkişaf edəcək. Xətalardan dərs alın. "Sözü səhv deyərəm" kimi qorxunu dəf edin. Başlanğıcda o dildə ən çox işlənən kəlmələri öyrənin. O kəlmələrlə cümlə qurun, buna vərdiş etməyə çalışın. Yeni öyrəndiklərinizi başqalarıyla paylaşın. Bu, dil bilginizi qoruyacaq. Qrammatikanı öyrənməyi ən son mərhələyə saxlayın. Əsas məsələ öyrənməyə çalışdığınız dildə danışan insanlarla ünsiyyət qurmaqdır.

P.S. Görkəmli alim, professor Əzizə Cəfərzadə tələbələrinə deyirmiş ki, universitetə gələndə yol boyu qarşısına çıxan əşyaların adını farsca beyində təkrarlayır, tələffüz edir. Bu, onu fars dilini unutmağa qoymur.

**Məlahət Rzayeva**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 559




## Pilot qadın indi avtobus sürücüsü olacaq

### Sabri Sarıoğlunun xanımı artıq sürücülük vəsiqəsi də alıb

**Türkiyənin ”Qalatasaray” futbol klubunun sabiq oyunçusu Sabri Sarıoğlunun həyat yoldaşı Yağmur Sarıoğlu avtobus sürücüsü olacaq.**

NTV com.tr-nin xəbərinə görə, Yağmur Sarıoğlu bir neçə il pilot olaraq çalışıb, indi isə pilotluğa vida edərək sərnişin avtobusu idarə etmək həvəsindədir. Yağmur bu barədə sosial mediada xəbər paylaşaraq ”D” kateqoriyası sürücülük vəsiqəsi aldığını bildirib. ”Qalatasaray” FK-yə məxsus lüks avtobusun önündə çəkilmiş fotosunu da xəbərə əlavə edib. Yağmurun paylaşımı instagran izləyicilərinin böyük marağına səbəb olub və bəyənilib. Yağmur Sarıoğlu ”uzun müddətdir həyata keçirmək istədiyim bir iş idi. Nəhayət, avtobus sürücüsü vəsiqəmi aldım. Bundan gözəl paylaşım düşünmədim”, yazıb. Sosial media izləyiciləri isə paylaşıma ”bundan sonra futbolçuları sən daşıyarsan”, ”idarə edə bilmədiyiniz texnika qaldımı?” kimi şərhlər yazıblar. Qeyd edək ki, Sabri Sarıoğlu ilə Yağmur Sarıoğlunun 3 övladı var.

**Məlahət**

## 12 uşaq anası Ukraynada döyüşlərdə həlak oldu



**Rusiya qüvvələriylə döyüşlərdə ukraynalı 12 uşaq anası həlak olub.**

Trend xəbər verir ki, hərbi həkim olan Olqa Semidyanova ”Qəhrəman ana” adına layiq görülüb. O, altı övladı ilə yanaşı, daha altı azyaşlını Uşaq evindən götürərək tərbiyə edib.

*Onun martın 3-də Donetsk və Zaporojye vilayətləri yaxınlığında həlak olduğu bildirilir.*

## Ebrunun milyonluq boyunbağısı gündəm oldu



**Dizindəki zədəyə görə səhnədən uzaq düşən türkiyəli müğənni Ebru Yaşar 2 aydan sonra konsert proqramıyla çıxış edib.**

Axşam.az xəbər verir ki, sənətçi gecədə ağ libasını sırğa və boyunbağısıyla tamamlayıb.

Yaşarın ”Bvlgari” markasına məxsus boyunbağısının 1 milyon lirə dəyərində olduğu məlum olub.

## 30 ildən sonra durnalar geri döndü

### Sakinlər həm seviniblər, həm də təəccübləniblər



**Durnalar 30 ildən sonra Türkiyənin Yüksekova bölgəsinə qayıdıb.**

Hakkarinin Yüksekova qəsəbəsinə dönən durnalar vətəndaşları xeyli təəccübləndirib. ”Quş cənnəti” kimi tanınan və onlarla quş növünə ev sahibliyi edən Nehil bataqlıqlarında quşlar köç yolu ilə geri gəlməyə başlayıb.

Durnalar hər il olduğu kimi düzənlikdə sürü halında görünüb.

Nəsli tükənmək təhlükəsi altında olan iri, uzun ayaqlı, qısa quyruqlu quşun 30 ildən sonra Yüksekovada görülməsi həm sevinc, həm də təəccüb doğurub.

İllər sonra ilk dəfə belə şəffaf durnalar gördüyünü ifadə edən yerli sakin Şərafəddin Barut bunları deyib:

”Bu il ən böyük sürpriz dəstə-dəstə gələn durnalar oldu. Bu, çox sevindiricidir. 30 ildən sonra dəstə-dəstə Yüksekovaya gəldilər və indi də gözləyirlər. Ən maraqlısı odur ki, bu qədər yaxın olduqları halda insanlardan qaçmırlar”.

**Çimnaz Şahlar**



# Araşdırma: Ev heyvanları ağrıları azaldır

### Təcili yardım şöbəsinə yerləşdirilmiş xəstələrin yanına itlər gətirilib




**ABŞ-da aparılmış bir araşdırma itlərin xəstə insanların ağrısını azaltdığını ortaya çıxarıb. Araşdırma nəticəsində məlum olub ki, təcili yardım şöbəsinə yerləşdirilmiş xəstələrin yanına itlər gətirildikdən 10 dəqiqə sonra ağrıları azalıb.**

Bu barədə NTV.com.tr məlumat verir. Araşdırmaya rəhbərlik edən Colleen Dell bildirib ki, tədqiqatda iştirak edən xəstələr ”köpəklərə sevgi bütün xəstəlikləri müalicə edir” tezisini dəstəkləyiblər: ”ev heyvanlarının sağlamlığımızın önəmli bir qismi olduğunu göstərən araşdırmalar var. Onlar bizi motivasiya edir, bizi ayağa qaldırır, vərdişləri bizlərə insan və heyvan - iki canlı arasındakı əlaqənin nə dərəcədə güclü olduğunu göstərir”. Araşdırma haqqında ”PLOS One” dərgisində yazı dərc edilib. Bildirilir ki, təcili yardım şöbəsindəki 200-dən artıq xəstədən ağrıları barədə 1-10 şkalası üzrə məlumat vermələri istənilib. Xəstələrdən bir qrupunun yanına itlər gətirilib. İtlərlə 10 dəqiqə vaxt keçirən xəstələr digərlərinə nisbətən ağrılarını daha az qeyd ediblər. Vaşinqton Sağlamlıq Araşdırmaları İnstitutunun tədqiqatçısı Cessika Çubak tədqiqatın güclü metodologiyaya malik olduğunu söyləyib: ”Tədqiqatın nəticələri ümidvericidir. Müalicə itləri barədə isə hələ öyrənilməli çox şey var”.

**Məlahət**



## Yerli əhalinin rəğbətini qazanıb

### 57 yaşlı təmizlik işçisi çirkli şüşələrdə sənət əsərləri yaradır

**Palçıqlı avtomobillərə, çirkli şüşələrə ”məni yu!” səssiz etirazların yazıldığını görməmiş deyilsiniz. Paytaxtımızda belədi. Hələ söyüş, nalayiq sözlər yazanlar da olur.**

Türkiyənin Trabzon şəhərinin Araklı Bələdiyəsində təmizlikçi işləyən 57 yaşlı Erol Ceylan isə tozlu, çirkli şüşələrdə sənət əsərləri yaratmağı bacarıb. Erol Ceylan rəssamlıq istedadını tozlu şüşələr üzərində nümayiş etdirmək yolunu seçib.



Erol bələdiyyə işçisi olaraq küçələri təmizləyir, zibilləri daşıyır, tozlu, palçıqlı avtomobil şüşələri üzərində isə rəsmlər, müxtəlif mənzərə şəkilləri, portretlər də çəkir. Hətta bələdiyyə ərazisinə daxil olan divarlara da müxtəlif maraqlı rəsmlər şəkir, küçələrdə fiqurlar düzəldir. Bunları daşları, taxtaları yonaraq edir. Yəni əlavə hansısa materialdan istifadə etmir, əlinin altında, gözünün gördüyü nə varsa, ondan yararlanır. Erol Ceylanın rəssamlıq, heykəltəraşlıq məharəti yerli əhalinin rəğbətini qazanıb. NTV.com-tr xəbər verir ki, bu barədə E.Ceylan İHA-ya danışıb: Təhsil almamışam. Bizim vaxtımızda belə imkanlar yox idi. Anamla bacı-qardaşları foto çəkdirmişdilər, fotonu anama göndərmişdilər. Anam o fotonu sandığında saxlayırdı. Həmin fotonu sandıqdan gizlicə çıxartdım, arxa tərəfinə qələmlə eynisini həkk etdim. Arxa tərəfdən çəkmişdim deyə, foto cızılmışdı, buna görə anam əsəbiləşdi. Amma mən rəsm çəkmək istəyindən əl çəkmədim. İbtidai sinifdə oxuyanda Atatürkün daşdan büstünü düzəltdim. Dənizin altında da sahildən topladığım daşlarla rəsmlər çəkirdim. Bu məndə anadangəlmə istedaddır. Ailəmizdə başqa heç kimdə belə istedad yoxdur” deyən Erol Ceylan hər yerə rəsmlər çəkmək istədiyini, hər tərəfi gözəlləşdirməyə çalışdığını söyləyib. Rəssamlıq həvəsi və ətrafın gözəl görünməsi istəyi o qədər güclüdür ki, tozlu avtomobil görəndə dinc dayanmır, tozun, çirkin üstünə müxtəlif rəsmlər çəkir. E.Ceylan deyir ki, bundan xoşlananlar da var, etiraz edənlər də ”bəzən döyüləcəyimdən qorxuram, çünki avtomobil şüşələrinə rəsm çəkməyimi hər kəs eyni cür anlayışla qarşılamır”. E.Ceylan rəsmləri çəkərkən fırçadan istifadə etmir. Süngər, ya da barmaqlarıyla çəkir. E.Ceylanın uşaqlıq dostu Nizaməddin Bayraktarsa deyib ki, dostu bəzən palçıqdan, bəzən qar topasından, bəzən də bir odun parçasından sənət əsərləri ortaya çıxarır: ”Bizi təəccübləndirməyi bacarır”.

**Məlahət Rzayeva**

## Poliqlotların sirri çözüldü

### Bir neçə dildə danışmağın sadə yolu varmış



**“Bir dil bir insan, iki dil iki insan...” məsəlini eşitmisiniz yəqin. Bir neçə dil bilənlərə qibtə edilir həmişə. Onları “istedadlı”, “ağıllı”, hətta “dahi” də adlandırırlar.**

Halbuki bir neçə dil bilmənin adı poliqlotdur və bunu, əslində bir çox insan bacara bilər. Düzgün üsullar və metodlardan istifadə edilərsə. “Şərq” “Milliyet.com”da yer alan maraqlı materialı oxuculara təqdim edir. 8 dil – ingilis, ispan, fransız, alman, ərəb, yapon, koreya dilini qısa müddətdə öyrənib sərbəst danışan, yazan, anlayan Mustafa Ərdoğan dil bilgilərini əldə etməyin sadə yollarından danışıb. Mustafa da xarici dil öyrənməyə başlayanda bir çoxları kimi çətinlik çəkib. İngilis dilini ibtidai sinifdən öyrənməyə başlayıb. Sonra dil kurslarına gedib. Hətta özəl dərs də alıb. Buna baxmayaraq ingilis dilində sərbəst danışa bilməyib. Universitetdə təhsil alarkən bir professorla tanış olub. Professor ona poliqlotluğun sirrini öyrədib. Üsulları anladıb, onun sayəsində Mustafa nəinki ingilis, əlavə daha 7 xarici dil də öyrənib.

***Davamı səh.7***

## "Seçili çox sevirdim"

### Sərdar Ortaç: ”Kaş yenidən birlikdə olsaq”



**Türkiyəli müğənni Sərdar Ortaç qonaq olduğu proqramda ”həyatınızda heç kimisə sevmisiniz” sualını cavablayıb.**

Axşam.az xəbər verir ki, ifaçı keçmiş sevgilisi Seçil Gürə daha çox aşiq olduğunu etiraf edib:

**”Seçili çox sevirdim. Onu hətta Xloedən (red.- S.Ortacın keçmiş həyat yoldaşı, model Xloe Luqnan) 10 qat çox sevirdim. Kaş yenidən birlikdə olsaq...”.**

*Qeyd edək ki, bir müddət əvvəl Seçil açıqlamasında Sərdarın nə onu, nə Xloeni, nə də özünü sevdiyini bildirmişdi.*